RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 184 (8777) ÇƏRŞƏNBƏ, 1 sentyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Şuşa sürətlə inkişaf edir

## İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən kompleks tədbirlər mədəniyyət paytaxtımızı regionun ən gözəl şəhərlərindən birinə çevirəcək

"...44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik. Bu gün Şuşa artıq dirçəlir və Şuşanın dirçəlməsi üçün əməli addımlar atılır..."

Bəli, 2020-ci ilin 8 noyabrı Qarabağın baş tacı Şuşanın azadlığa qovuşduğu, 2021-ci ilin 14 yanvarı isə dirçəliş günü oldu...

O Şuşa ki, hər zaman tariximizin, mədəniyyətimizin, ruhumuzun şah taxtında əyləşib, musiqimizin beşiyi, poeziyamızın inci qatarı, qəhrəmanlıq salnamələrimizin hünər, cəng meydanı olub...

Şuşada hara baxsan, hansı küçəyə göz yetirsən başdan-başa tarix, salnamədi...

Qala divarı, Gəncə qapısı, Topxana, Cıdır düzü, Turşsu, İsa bulağı, Pənahəli xanın, Vaqifin, Natəvanın, Üzeyir bəyin, Xan əminin ruhu hopmuş 17 məhəllə: Böyük qurdlar, Kiçik qurdlar, Seyidli, Culfalar, Təzə məhəllə, Hamamqabağı, Dəmirçilər, Quyuluq, Xocamircanlı, Mamayı, Saatlı, Köçərli, Mərdinli, Çölqala, Hacı Yusifli, Çuxur məhəllə, Ağadədəli...

### "Şuşasız bizim işimiz yarımçıq olar"

Buna görə idi ki, 44 günlük Vətən savaşında da qəhrəman oğullarımız birbaşa Qarabağın ürəyi, gözü Şuşaya doğru şığıdılar, bu füsunkar şəhər uğrunda ölüm-dirim savaşına qalxdılar, sıldırımlardan aşaraq, yalın əllə mənfur düşmənin üzərinə şığıyıb qarşılarında diz çökdürdülər. Azərbaycan oğulları bu dağlar incisini elə bir cəsurluqla azad etdilər ki, min illər bundan sonra da hünərlərindən danışılacaq, şənlərinə dastanlar, əfsanələr qoşulacaq...

Şuşanı hər zaman Azərbaycan xalqı özünün mənəvi paytaxtı hesab edib, tarixinin, mədəniyyətinin beşiyi sanıb, əzəməti ilə qürurlanıb, varlığı ilə öyünüb.

II Qarabağ müharibəsinin gedişi ərəfəsində, 16 oktyabr 2020-ci ildə Prezident İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibə verən zaman jurnalistin sualını cavablandırarkən Şuşanın azadlığının xalqımız üçün nə qədər əhəmiyyətli olmasını xüsusi vurğulamışdı: "... İstiqamət hər tərəfdir. İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".

Çox keçmədən müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu Şuşanı azad etdi və bu tarixi zəfərlə düşmənə elə bir gözdağı verdi ki, onun ağrı-acısını heç zaman unuda, sınmış belini düzəldə bilməyəcək...

Ardı 4-cü səh.

## Şuşaya əbədi günəş doğub

"...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir".

Ulu Öndərin bu fikirləri söylədiyi o gün - 1982-ci il yanvarın 14-ü Şuşanın dağları ağ örpəyə bürünmüşdü. Şuşaya qar yağırdı, soyuq adamın iliklərinə qədər işləyirdi. Həmin şaxtalı gün böyük Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsinin açılışı oldu. Muzey-məqbərə kompleksi Cıdır düzünə yaxın bir ərazidə dahi şairin məzarı üstündə inşa edilmişdi. Dördkünc quruluşa malik və mərmərlə bəzədilən türbənin inşası məsələsi həll edilərkən ətrafdakı dağ mənzərəsi və şəhərsalma xüsusiyyəti nəzərə alınmış, Azərbaycanın qülləvari türbələrinin kompozisiya quruluşundan istifadə olunmuşdu. Məqbərənin inşasında xalq memarlığının yerli ənənələrinə, monumental-dekorativ və tətbiqi plastika vasitələrinə yer verilmişdi. Türbənin daxilində Molla Pənah Vaqifin heykəltəraş Albert Mustafayev tərəfindən hazırlanan büstü qoyulmuşdu.

Ardı 4-cü səh.

## Özbəkistan Respublikasının Prezidenti zati-aliləri cənab Şavkat Mirziyoyevə

Hörmətli cənab Prezident!

Qardaş Özbəkistan Respublikasının müstəqilliyinin 30-cu ildönümü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Ötən dövr ərzində Sizin müdrik rəhbərliyiniz altında Özbəkistanda sosial-iqtisadi tərəqqi və digər sahələrdə mühüm nailiyyətlərin əldə edilməsi qardaş dövlət olaraq bizi çox sevindirir.

Qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan-Özbəkistan münasibətlərinin mövcud vəziyyəti məmnunluq doğurur. Bu münasibətlərimiz siyasi, iqtisadi və mədəni əlaqələrimizin yüksək inkişaf səviyyəsi ilə səciyyələnir.

Əminəm ki, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın daha da dərinləşməsi istiqamətində atdığımız birgə addımlar bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizi bir daha ürəkdən təbrik edir, qardaş Özbəkistan Respublikasına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 avqust 2021-ci il*

## Prezident İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında yüksək nəticə göstərən idmançılarımızı təbrik edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında yüksək nəticə göstərən idmançılarımızı təbrik edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı bununla bağlı "Twitter"dəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: "İkinci dəfə qızıl medalı ilə bizi sevindirən Raman Salehi, gümüş medal qazanmış Lamiyə Vəliyevanı və bürünc medal mükafatçısı Səid Nəcəfzadəni ürəkdən təbrik edirəm!"

## Birinci vitse-prezident Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında növbəti medallar qazanan idmançılarımızı təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti medallar qazandıran idmançılarımızı təbrik edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin bununla bağlı "Instagram" hesabında etdiyi paylaşımda deyilir:

"Bu günədək olan nəticələrə əsasən, Azərbaycanın 10 qızıl, 1 gümüş və 4 bürünc medalı var! Bugünkü qaliblərimizi - daha bir qızıl medal qazanmış Raman Salehi, gümüş medal sahibi Lamiyə Vəliyevanı və bürünc mükafatçı Səid Nəcəfzadəni səmimi-qəlbdən təbrik edirəm! Milli yığmamıza yeni qələbələr və nailiyyətlər arzulayıram!"

## Yeni iş yerlərinin yaradılması əhalinin sosial müdafiəsinin əsas istiqaməti olaraq qalır

Regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin ardıcıl şəkildə həyata keçirilməsi ölkə iqtisadiyyatının qeyri neft-qaz sektorunun getdikcə irəliləməsinə, iqtisadiyyatın diversifikasiyası və prioritet sahələrə irihəcmli investisiyaların yatırılması nəticəsində yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlamasına, yeni iş yerlərinin açılmasına zəmin yaratmışdır.



Artıq xeyli vaxtdır dünyada tüğyan edən koronavirus pandemiyası şəraitində də Azərbaycan dövləti bu istiqamətdə fəaliyyətini qətiyyən zəiflətməmişdir. Ümumiyyətlə, koronavirusun sosial-iqtisadi sahəyə vurduğu ziyanın minimum olması üçün hələ pandemiyanın əvvəlindən ölkədə genişmiqyaslı qabaqlayıcı tədbirlər görülmüşdür. İqtisadi inkişafın təmin olunması üçün bir sıra əsaslı proqramlar işlənib hazırlanmışdır və onlar həyata keçirilməkdə davam edir. Əhalinin məşğulluq məsələsi bu dövrdə də prioritetlərdən biri kimi qalmışdır. Prezident İlham Əliyev hələ keçən ilin əvvəlində demişdir: "Dövlət xətti ilə həyata keçirilən investisiya layihələri eyni zamanda məşğulluğu təmin edir və əhalisi artan Azərbaycan üçün məşğulluq məsələsi, əlbəttə ki, ön plandadır".

Ardı 5-ci səh.



## Bitmək bilməyən pandemiyadan çıxış yolu peyvəndlənmədir

### Vaksinasiyanın sürətlənməsi normal həyata daha tez dönməyimizə səbəb ola bilər

Ölkədə hələ karantin qaydaları yumşaldılmamışdan əvvəl mütəxəssislər tərəfindən sərt məhdudiyyətlər götürüldükdən sonra koronavirusa yoluxma sayının yenidən artacağı xəbərdarlığı edilmişdi.

Azərbaycanda iyulun sonlarından başlayaraq yoluxanların sayının tədricən artması və gündəlik yoluxma sayının artıq 4 mini ötməsi bu xəbərdarlığın özünü doğrultduğunu deməyə əsas verir. Lakin yoluxma sayındakı artım demək olar ki, bütün ölkələrdə müşahidə edilir.

Ardı 6-cı səh.



XVI Tokio Yay Paralimpiya Oyunları

## Paralimpiyaçılarımız tarix yazmaqda davam edirlər

### Üzgüçümüz qızıl dubla imza atdı



Dünən isə medal hesabımıza daha iki medal əlavə olundu. Üzgüçümüz Raman Saleh sərbəst üsulla 100 metr üzməkdə 1-ci yerə yiyələndi. Finişə 52,69 saniyəyə çatan R.Saleh ən yaxın izləyicisini 0,18 saniyə qabaqlayaraq özünün ikinci qızıl medalını əldə etdi. O, daha öncə 100 m məsafəyə arxası üstə üzməkdə çempionluq sevinci yaşamışdı.

Bax: səh. 7

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Türkiyə Respublikasında meşə yanğınlarının söndürülməsində və fəlakət zonasında zəruri axtarış-xilasetmə əməliyyatlarının yerinə yetirilməsində fərqləndiklərinə görə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"İgidliyə görə" medalı ilə**

Mirzəyev Etibar Böyükbəy oğlu - general-leytenant
Həsənov Məhərrəm İmamqulu oğlu - general-mayor
Kərimov Emil Kərim oğlu - polkovnik-leytenant
Qlıçov Emil Cəmiyeviç - mayor
Təhməzov Nahid Aydın oğlu - kapitan
Əkbərov Cəlal Mirzəbala oğlu - baş gizir
Əliyev Elnur Qaçay oğlu - daxili xidmət baş çavuşu
Əliyev Samir Savalan oğlu - daxili xidmət baş çavuşu
Abbasov Eyvaz Əjdər oğlu - mülki işçi
Cəfərov Zəfər İdris oğlu - mülki işçi
Əliyev Faiq Sabir oğlu - mülki işçi
Hüseynov Telman Səfər oğlu - mülki işçi
Kolmıkov Viktor İvanoviç - mülki işçi
Qəhrəmanov Cavid Əkrəm oğlu - mülki işçi

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Əliyev Ələsgər Nəcəf oğlu - polkovnik
Həsənov Anar Şükür oğlu - polkovnik-leytenant
Xəlilli Məmməd İsfəndiyar oğlu - polkovnik-leytenant
Hüseynov Bəhruz Elxan oğlu - mayor
Şixəliyev Vüqar Məmməd oğlu - mayor
Abbasov Nurlan İsmayıl oğlu - kapitan
Allahverdiyev Elməddin Sərəddin oğlu - kapitan
Eyvazov Qurban Əbülfət oğlu - tibb xidməti kapitanı
Əhmədov Nuriddin Abbas oğlu - kapitan
Hüseynov Zaur Sahib oğlu - kapitan
İbrahimov Qəzənfər Surxay oğlu - kapitan
Məmmədov Rauf Həbib oğlu - kapitan
Əliyev Hüseyn Sadıq oğlu - baş leytenant
Kərimov Rahib Əsgər oğlu - baş leytenant
Qocayev Elvin Novruz oğlu - baş leytenant
Məmmədov Səmədağa Məmmədağa oğlu - baş leytenant
Rzalı Samir Adıgözəl oğlu - baş leytenant
Səfəralıyev Səfəralı Hacəddin oğlu - baş leytenant
Ağayev Allahverdi Sabir oğlu - leytenant
Bayramov Rüstəm Çingiz oğlu - leytenant
Əliyev Rizvan Rəhman oğlu - leytenant
İbrahimov Eldəniz Hilal oğlu - leytenant
İsmayılov Ələskər Fərman oğlu - leytenant
Bayramov İsmayıl Novruz oğlu - gizir
Eyvazlı Elmir Qafqaz oğlu - gizir
Əkbərli Kamal Elçin oğlu - gizir
Həsənov Arzuman Arzu oğlu - gizir
Hüseynov Səbuhi Yuris oğlu - gizir
İmanov Zahir İsmayıl oğlu - gizir
Mahmudov Sahil Murad oğlu - gizir
Məmmədov Rəvan Bayram oğlu - gizir
Musayev Vüqar Zülfüqar oğlu - gizir
Nəsirov Xəyal Elçin oğlu - gizir
Ramazanov Orxan Rasim oğlu - gizir
Ramazanov Tahir Aşur oğlu - gizir
Səfərov Nazim Zahid oğlu - gizir
Süleymanzadə Əhməd Şakir oğlu - gizir
Bədəlzadə Nurlan Polad oğlu - kiçik gizir
Məhəmmədov Ramin Həbib oğlu - kiçik gizir
Yusifov İlqar Yusif oğlu - kiçik gizir
Salamov Rövşən Bəybala oğlu - baş çavuş
Cəfərov İsmayıl Qadir oğlu - çavuş
Qarayev Rəşad Mərdan oğlu - çavuş

**2-ci dərəcəli "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Nəbiyev Xudat Allahverdi oğlu - daxili xidmət polkovniki
Dünyamalıyev Rəşad İsmayıl oğlu - daxili xidmət polkovnik-leytenantı
Ələsgərov Elçin Rasim oğlu - daxili xidmət polkovnik-leytenantı

**3-cü dərəcəli "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Bağışov Nəzər Zayid oğlu - daxili xidmət polkovniki
Əliyev Azad Arif oğlu - daxili xidmət polkovniki
Xudiyev Rza Xudu oğlu - daxili xidmət polkovniki
Ağayev Saleh İldır oğlu - daxili xidmət polkovnik-leytenantı
Bayramov Rəşad Xıdır oğlu - daxili xidmət polkovnik-leytenantı
Nəsibov İlqar Vüqar oğlu - daxili xidmət polkovnik-leytenantı
Abdullayev Abdulla Əjdər oğlu - daxili xidmət mayoru
Cəbrayılov Elçin Namiq oğlu - daxili xidmət mayoru
Dəmirov Sərxan Adil oğlu - daxili xidmət mayoru
Həsənli Xalid Şahin oğlu - daxili xidmət mayoru
Məmmədov Elçin Şahsevər oğlu - daxili xidmət mayoru
Niyazov Sənan Nizami oğlu - daxili xidmət mayoru
Əsgərov Murad Hafiz oğlu - daxili xidmət kapitanı
Gəncəliyev Şəmsəddin Qəşəm oğlu - daxili xidmət kapitanı
Əkbərov Vahab Sadıq oğlu - daxili xidmət leytenantı
Cəfərov Xəqani Məhərrəm oğlu - daxili xidmət giziri
Babayev Ağa Bala Valeh oğlu - daxili xidmət kiçik giziri
Əliyev Azər Akif oğlu - daxili xidmət baş çavuşu
Hüseynov Seyran Fikrət oğlu - daxili xidmət baş çavuşu
İsmiyev Mustafa Cəlal oğlu - daxili xidmət baş çavuşu
Qurbanov Elvin Nadir oğlu - daxili xidmət baş çavuşu
Məmmədov Hafiz Asif oğlu - daxili xidmət baş çavuşu
Məmmədov Qılman Məhəmməd oğlu - daxili xidmət baş çavuşu
Məmmədov Rüstəm Vilayət oğlu - daxili xidmət baş çavuşu
Nəsirov Rəşad Allahverən oğlu - daxili xidmət baş çavuşu
Paşayev Əlisgəndər Tahir oğlu - daxili xidmət baş çavuşu
Rəhmanov Telman Mətləb oğlu - daxili xidmət baş çavuşu
Sadıqov Elçin Nizami oğlu - daxili xidmət baş çavuşu
Abasov Tomar Əliağa oğlu - daxili xidmət çavuşu
Ağayev Mircəlil Mirzə oğlu - daxili xidmət çavuşu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2021-ci il*

# Azərbaycan və İran XİN rəhbərləri arasında telefon danışığı olub




Avqustun 31-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan arasında telefon danışığı olub.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov İran İslam Respublikasının xarici işlər naziri vəzifəsinə təyin olunması münasibətilə həmkarını təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Ceyhun Bayramov Azərbaycan və İran arasında dərin tarixi köklərə əsaslanan dostluq və əməkdaşlıq münasibətlərinin, geniş spektrli ikitərəfli əməkdaşlıq gündəliyinin mövcudluğunu vurğulayıb və iki ölkə tərəfindən bir sıra layihələrin uğurla icra olunduğunu qeyd edib.

Tərəflər həmçinin regionda mövcud olan cari vəziyyət və ikitərəfli əməkdaşlığın bəzi məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov iranlı həmkarını Azərbaycana rəsmi səfərə dəvət edib.

# Qırğızıstan Prezidenti Sadır Japarov Polad Bülbüloğlunu "Dostluq" ordeni ilə təltif edib

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunu "Dostluq" ordeni ilə təltif edib.




AZƏRTAC xəbər verir ki, Qırğızıstanın dövlət müstəqilliyinin 30-cu ildönümü münasibətilə Prezident Sadır Japarov mədəniyyət və incəsənət xadimlərini mükafatlandırıb.

Qırğızıstan rəhbəri öz fərmanı ilə Azərbaycanın Rusiyadakı səfiri, bəstəkar, müğənni, MDB ölkələrinin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun idarə heyətinin sədri Polad Bülbüloğlunu "Dostluq" ordeni ilə təltif edib.

# Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrində taktiki-xüsusi təlim keçirilib













Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrində taktiki-xüsusi təlim keçirilib.

Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təlimin ssenarisinə əsasən Əlahiddə Ümumqoşun Ordunun aviabazasında xidmət edən bir hərbi qulluqçu şərti düşmənin təxribat-diversiya qrupu tərəfindən qaçırılır. Terrorçular qaçırdıqları pilotla birlikdə tərk edilmiş binada gizlənirlər.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayevin və Türkiyə Silahlı Qüvvələri mənsublarının izlədikləri təlimdə şəxsi heyətin əsir və girovların azad edilməsi üçün binalarda döyüş əməliyyatlarının aparılması bacarıqları yoxlanılıb.

Təxribatçıların gizləndikləri binada səssizcə mövqe tutan snayper cütlükləri qrupların təhlükəsiz hərəkətini təmin etmək üçün fəaliyyət göstərirlər.

Xüsusi təyinatlı qruplar terrorçuların gizləndikləri binaya gizli şəkildə daxil olaraq təxribatçıları zərərsizləşdirməyə başlayırlar.

Antiterror əməliyyatını itkisiz başa vurmaq və qaçırılmış pilotun sağ şəkildə azad edilməsi üçün digər bir qrup da helikopterlə binaya endirilir.

Xüsusi təyinatlılarımız şərti düşmənin təxribat-diversiya qrupunu zərərsizləşdirmək üçün antiterror əməliyyatları zamanı binalarda tətbiq edilən yaxın məsafədə döyüş elementlərini yerinə yetirirlər.

Şərti düşmənin təxribat cəhdinin qarşısını alan xüsusi təyinatlı qruplar terrorçuları tam tərkibdə məhv edir, aviabazanın pilotunu azad edərək kimliyini dəqiqləşdirir və əməliyyat rayonundan uzaqlaşırlar.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun müşahidəçi və təlimatçı qismində iştirak etdiyi təlimin uğurla başa çatması münasibətilə mükafatlandırma mərasimi keçirilib.

Mərasimdə sarsılmaz qardaşlığın nümunəsi olan Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının əhəmiyyətindən danışan Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev taktiki-xüsusi təlimdə xüsusi təyinatlı bölmələrin şəxsi heyətinin yüksək peşəkarlıq, vətənpərvərlik və döyüş təcrübəsi nümayiş etdirdiyini diqqətə çatdırıb.

Sonda hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edilib.

# "Davamlı İnkişaf Məktəbi" layihəsi çərçivəsində "Qlobal hədəflərə nail olunmasında gənclər siyasətinin rolu" mövzusunda seminar olub

Avqustun 31-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında partiyanın Gənclər Birliyinin "Davamlı İnkişaf Məktəbi" layihəsi çərçivəsində "Qlobal hədəflərə nail olunmasında gənclər siyasətinin rolu" mövzusunda növbəti seminar keçirilib.



Partiyanın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov seminarda iştirak edən gəncləri salamlayıb, həmçinin mövzunun aktuallığından bəhs edib. Ölkəmizin ictimai-siyasi həyatında gənclərin fəal iştirakına toxunan YAP Gənclər Birliyinin sədri bildirib ki, həyata keçirilən bu layihə gənclərin inkişafında əsaslı rol oynayacaq.

Daha sonra tədbirdə çıxış edən Milli Məclisin deputatı Məzahir Əfəndiyev ölkəmizdə uğurlu gənclər siyasətinin həyata keçirildiyini diqqətə çatdırıb. M.Əfəndiyev bildirib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasi kurs gənclərimizin milli mənəvi dəyərlər kontekstində, sağlam və intellektual inkişafını şərtləndirib. Dövlətin hərtərəfli qayğısı ilə əhatə olunan gənclərimiz cəmiyyətin ən aparıcı təbəqəsi kimi çıxış edir və onların fəaliyyəti Azərbaycanın dinamik inkişafına əhəmiyyətli töhfələr verir: "Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışı gənclərimizin gələcəyinin uğurlu inkişafında yeni bir səhifə açdı. 1994-cü ildə Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, 1996, 1999 və 2003-cü illərdə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan gənclərinin forumlarının keçirilməsi və 1997-ci il fevralın 1-də Ümummilli Lider Heydər Əliyev tərəfindən "2 fevral - Azərbaycan Gəncləri Günü elan edilməsi haqqında" sərəncamın imzalanması Azərbaycanda dövlət gənclər siyasətinin inkişafında yeni mərhələnin başlanğıcı oldu".

Milli Məclisin deputatı onu da qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən inamla və ardıcıllıqla davam etdirilir.

Gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə mühüm dövlət proqramları icra olunub, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncamın imzalanması bu kontekstdə müstəsna əhəmiyyət kəsb edir. "Gənclər siyasəti çərçivəsində Gənclər Fondunun yaradılması, gənclərin və gənclər təşkilatlarının bacarıq, təşəbbüs və yaradıcılıqlarının üzə çıxarılması, onların hökumət tərəfindən dəstəklənməsi, Gənclər üçün Prezident Mükafatının təsis olunması, ölkə gənclərinin beynəlxalq arenada təmsilçiliyinin yüksəlməsi, respublikanın əksər rayon və şəhərlərində gənclərin istifadəsinə verilən gənclər mərkəzlərinin və gənclər evlərinin tikilməsi səmərəli nəticələrin əldə olunmasını şərtləndirib", - deyən M.Əfəndiyev onu da əlavə edib ki, ölkəmizdə geniş könüllülük hərəkatının təşəkkül tapması da məhz Prezident İlham Əliyevin adı ilə bağlıdır. 2009-cu ildə "Könüllülük fəaliyyəti haqqında" qanunun qəbul edilməsinin ardından 2013-cü ildə ASAN Könüllüləri Təşkilatının yaranması bu istiqamətdə fəaliyyətin daha da genişlənməsinə yol açdı.

Tədbirdə gəncləri maraqlandıran suallar cavablandırılıb.

# Türk Şurasına üzv olan və müşahidəçi dövlətlərin media orqanlarının nümayəndələri Füzulidə minalanmış sahələrin təmizlənməsi prosesini izləyiblər

Türk Şurasına üzv olan və müşahidəçi dövlətlərin media orqanlarının nümayəndələri avqustun 31-də erməni işğalından azad edilən Füzuli rayonunda Minatəmizləmə Agentliyinin nümayəndələri ilə görüşüb, minalanmış sahələrin təmizlənməsi prosesini izləyiblər.





AZƏRTAC xəbər verir ki, xarici jurnalistlər Füzuli-Cəbrayıl yolunda minatəmizləmə işləri ilə tanış olublar. Bildirilib ki, ötən il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan 30 ildir işğal altında qalan torpaqlarını düşməndən azad edib. Ermənistan tərəfi həm işğal dövründə, həm də müharibə vaxtı Azərbaycan torpaqlarına yüz minlərlə mina basdırıb. Hazırda azad olunmuş ərazilərdə minatəmizləmə əməliyyatları bütün gücü ilə davam edir. 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən kapitulyasiya aktının imzalanmasından sonra mina partlaması nəticəsində 30-a yaxın Azərbaycan vətəndaşı həlak olub, 100-dən çox insan yaralanıb.

Bundan əlavə, minalar azad olunmuş ərazilərdə yenidənqurma prosesini və məcburi köçkünlərin evlərinə qayıdışını da ləngidir. Belə geniş ərazilərin minalardan təmizlənməsi olduqca böyük zaman və resurs tələb edir. Ermənistan isə mina xəritələrini verməkdən boyun qaçırır. Beynəlxalq ictimaiyyət Ermənistanı məcbur etməlidir ki, azad olunmuş bütün ərazilərin dəqiq olan mina xəritələrini Azərbaycana versin. Çünki bəzi rayonların mina xəritələrini versələr də, onların dəqiqliyi 25 faizə bərabərdir.

Diqqətə çatdırılıb ki, hazırda Qarğabazar istiqamətində yol infrastrukturunun minalardan təmizlənməsi işləri aparılır. Ümumi uzunluğu 12 kilometr olan yol üç hissəyə bölünməklə təmizlənir. Birinci hissə - 180 min kvadratmetr ərazi təmizlənərək təhvil verilib. Hazırda yolun ikinci hissəsində 316 min kvadratmetr sahənin 289 min kvadratmetrində işlər yekunlaşıb və 174 ədəd mina və partlamamış silah-sursat aşkarlanıb. Növbəti mərhələdə isə yolun üçüncü hissəsi təmizlənəcək. Ərazidə əsasən Rusiya istehsalı olan tank əleyhinə və Ermənistan istehsalı olan piyada əleyhinə minalar basdırılıb. Minatəmizləmə prosesi əsasən üç üsulla - əl ilə, mexaniki yolla və xüsusi təlim keçmiş itlər vasitəsilə aparılır.

Daha sonra xarici jurnalistlər ərazidə aşkar edilən mina və silah-sursatların bir qisminin partlatma yolu ilə zərərsizləşdirilmə prosesini izləyiblər.

Qonaqlara məlumat verilib ki, Qarabağda və Şərqi Zəngəzurda indi həm minalardan təmizləmə işləri, eyni zamanda infrastruktur işləri sürətlə gedir. Böyük infrastruktur layihələri - avtomobil yolları, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları tikilir. Növbəti mərhələdə isə yaşayış yerlərinin inşasına start veriləcək. Artıq ilk belə pilot layihə Cəbrayılda həyata keçirilir. Bütün bu işlərin sürətlə aparılması üçün ərazilərin minalardan təmizlənməsi vacib şərtdir.

Türk Şurasına üzv olan və müşahidəçi dövlətlərin media orqanlarının nümayəndələri sonra işğaldan azad olunan Cəbrayıl rayonuna yola düşüblər.

# "Dəniz kuboku" müsabiqəsində artilleriya atışları yerinə yetirilib

"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində İran İslam Respublikasının Ənzəli şəhərində keçirilən "Dəniz kuboku" müsabiqəsində iştirak edən ölkələrin hərbi dənizçiləri Xəzər dənizindəki döyüş hazırlığı poliqonunda "Artilleriya atəşlərinin yerinə yetirilməsi üzrə yarış" mərhələsinin "Üzən minaya artilleriya atışı" tapşırığını yerinə yetiriblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tapşırığın şərtlərinə görə hərbi dənizçilər hərəkətdə olan gəmilərdən müəyyən məsafədə üzən iki mina hədəfini ümumilikdə 32 patron istifadə edilməklə məhv ediblər.

Hakimlər komissiyası hədəflərin məhv olunması və gəmilərin vaxt baxımından poliqonu daha tez tərk etməsi üzrə qiymətləndirmə aparıb.

Tapşırığın yekununda İran komandası 38 balla birinci, Rusiya 36 balla ikinci, Qazaxıstan 34 balla üçüncü, Azərbaycan hərbi dənizçiləri isə 28 balla dördüncü yerdə qərarlaşıblar.






# Şuşaya yeni nəfəs gəlir




## Şuşada keçirilən Vaqif Poeziya Günləri başa çatıb




Vaqif Poeziya Günlərinin ikinci gününün proqramı da maraqlı məqamlarla zəngin idi.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində avqustun 31-də xalq şairlərinin, həmçinin orta nəsil və gənc şairlərin çıxışları, muğam sənətkarlarının ifaları dinlənilib, "Nizamidən Vaqifə" adlı poetik kompozisiya təqdim edilib.

Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Azərbaycanın Xalq şairi, Milli Məclisin deputatı Sabir Rüstəmxanlı Vaqif Poeziya Günlərinin hər kəs üçün xoşbəxt anlar yaşatdığını vurğulayıb. "Şuşaya gəlməyimizlə bizim ruhumuz yüksəlir, əhvalımız yüksəlir, başımız dikəlir və öz tariximizlə, öz varlığımızla qürur duyuruq", - deyən Xalq şairi bu ucalığı xalqımıza bəxş edən Ali Baş Komandan İlham Əliyevə, Azərbaycan əsgərinə minnətdarlığını bildirib.

"Bu günlərdə təşkil olunan Vaqif Poeziya Günləri, əslində, sözümüzün, şeirimizin, ədəbiyyatımızın bayramıdır. Biz Şuşaya gələndə gördüyümüz o keçilməz yolları bizim ər oğullar Vətən sevdası, Şuşa sevgisi ilə qısa bir zamanda, çox sürətlə keçərək bu yerə gəlib çatıblar. Bu, misli görünməmiş bir qəhrəmanlıqdır. Əslində, bu, 30 il çox çətin günlər yaşamış ədəbiyyatımıza Azərbaycan əsgərinin verdiyi bir töhfədir. Bu, Azərbaycan əsgərinin göstərdiyi tarixi bir igidlikdir. Dünən Ali Baş Komandan bu qələbələrin nəticəsi olaraq Azərbaycanın söz ordusuna Vaqif məqbərəsini qaytardı. Sözün və silahın bir olduğu yerdə ölkə basılmaz. Məhz bu gün burada əyləşən söz, sənət adamları da daim Azərbaycan Ordusuna dayaq olmağa, onları yeni döyüşlərə ruhlandırmağa çalışıb. Bu gün nə yaxşı ki, sözümüzlə silahımız birdir. 44 günlük müharibə də bu birliyi bir daha göstərdi. Amma bu birliyin ən gözəl nümunəsini Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan göstərdi", - deyə Sabir Rüstəmxanlı vurğulayıb.

Xalq şairi Vətən müharibəsində Qələbəyə həsr etdiyi "Qarabağa dönüş" poemasından bir parçanı oxuyub.

Vaqif Poeziya Günlərinin ikinci günündə Vaqif Bəhmənli, Azərbaycan Yazıçılar Birliyinin (AYB) Xəzər bölməsinin sədri Arif Buzovnalı, Naxçıvan Muxtar Respublikasının Yazıçılar Birliyinin sədri Asim Yadigar, "Əli Kərim poeziya evi"nin rəhbəri şair İbrahim İlyaslı, "Söz" ədəbi layihəsinin rəhbəri şairə Nigar Həsənzadə, AYB-nin mətbuat katibi şair Xəyal Rza, şairə Rəsmiyyə Sabir, Dünya Gənc Türk Yazarlar Birliyinin sədri şair Əkbər Qoşalı, AYB-nin Gənclər Şurasının sədri şair Faiq Hüseyn çıxış edərək şeirlərini oxuyublar. Tədbirdə Muğam Beynəlxalq Müsabiqəsinin qalibləri Nisbət Sədrayeva və Xəyal Hüseynovun ifaları dinlənilib.

"Nizamidən Vaqifə" adlı poetik kompozisiya isə tədbirə xüsusi rəng qatıb. Xalq artistləri Mehriban Zəki, Pərviz Məmmədrzayev, Əməkdar artistlər Gülzar Qurbanova və Elşən Rüstəmovun çıxışları alqışlarla qarşılanıb.

Vaqif Poeziya Günlərinə "Qarabağ, ana yurdum" mahnısı ilə yekun vurulub.

Bu tədbir bir daha göstərdi ki, Şuşa Qarabağın mədəniyyət mərkəzi, musiqi beşiyidir. Bəli, Şuşa sarayı yenidən ucalır.

## Vaqif Poeziya Günləri çərçivəsində simpozium keçirilib

Vaqif Poeziya Günləri çərçivəsində avqustun 31-də Şuşada simpozium keçirilib.



AZƏRTAC xəbər verir ki, simpoziumda ədəbiyyatımızın qarşısında duran vəzifələrdən, son 30 ildə yaradılmış ədəbi nümunələrdən, Vaqif Poeziya Günlərinin ədəbiyyat adamlarına verdiyi stimuldan və Molla Pənah Vaqifin bənzərsiz yaradıcılığından söz açılıb.

Tədbiri açan Azərbaycan Yazıçılar Birliyinin katibi, yazıçı-dramaturq İlqar Fəhmi bildirib ki, ədəbiyyatşünas alimlərin və gənc şairlərin iştirakı ilə təşkil olunmuş bu simpozium gələcəkdə keçiriləcək tədbirlər üçün bir istiqamət göstərir. "Belə görüşlər ədəbiyyatımız qarşısında yeni üfüqlər açır. Gələcəkdə belə tədbirlərin daha geniş formatda təşkil ediləcəyi nəzərdə tutulur", - deyə İlqar Fəhmi vurğulayıb.

Simpoziumda çıxış edən akademik Nizami Cəfərov Vətən müharibəsində qazanılan Qələbədən sonra elmimizin, mədəniyyətimizin inkişafında mühüm işlər görüldüyünü vurğulayıb. Akademik bildirib ki, Qarabağ ədəbi mühiti dedikdə, ilk növbədə, göz önünə Vaqif gəlir. Qarabağın çox böyük ədəbi mühiti olub, vaxtilə burada ədəbi məktəblər fəaliyyət göstərib. Belə simpoziumlar bu ənənələrin bərpasına təkan verəcək.

Şair Adil Cəmil isə bu cür ədəbi tədbirlərin işğaldan azad edilmiş digər şəhərlərimizdə də təşkilinin vacibliyini söyləyib.

AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu çıxışında bu tədbirlərin ona xoşbəxt günlər yaşatdığını deyib. Prezident İlham Əliyevin Vaqif Poeziya Günlərinin açılış mərasimindəki çıxışında çox vacib məqamlara toxunduğunu vurğulayan alim müasir tariximizin Qarabağdan başlandığını diqqətə çatdırıb. Bildirib ki, müstəqillik dövründə Azərbaycan ədəbiyyatının əsas mövzusu Qarabağ olub. Bu mövzuda gələcəkdə də dəyərli əsərlər yaradılacaq.

Simpoziumda çıxış edən yazıçı-publisist Mustafa Çəmənli Qarabağın tarixindən danışıb, gələn il Şuşanın 270 illiyinin keçiriləcəyini deyib. O, Şuşanın əsasını qoymuş Pənahəli xan üçün abidə ucaldılması barədə arzusunu dilə gətirib.

"Ədəbiyyat" qəzetinin bas redaktoru Azər Turan belə tədbirlərin yeni əsərlərin yazılmasına təkan verəcəyini, Vaqif külliyyatının yenidən nəşr olunmasının vacibliyini vurğulayıb.

Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü, "Azərbaycan" jurnalının baş redaktorunun müavini Əsəd Cahangir Molla Pənah Vaqifin ədəbiyyatımız qarşısında xidmətlərindən danışaraq, şairin məqbərəsinin açılışını və poeziya günlərini ədəbiyyatımız və tariximiz üçün yeni dövr adlandırıb. Vurğulayıb ki, belə tədbirlər yaxın vaxtlarda Şuşanın dünya şəhərinə çevriləcəyini göstərir.

Sonda bildirilib ki, belə tədbirlər növbəti illərdə daha geniş formatda təşkil olunacaq.

## *Əsəd CAHANGİR:* "Vaqif məqbərəsinin ikinci dəfə açılışı ümumxalq əhəmiyyətli hadisədir"

"Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatının sütununu təşkil edən şairlərdən biridir. O, şifahi xalq ədəbiyyatı janrlarında yazılı nümunələrin yaranmasında mühüm rol oynayıb. Müasir Azərbaycan poeziyası, əslində, Molla Pənah Vaqifdən başlayır. Amma Vaqifin Azərbaycan ədəbiyyatı, ümumiyyətlə, Azərbaycan tarixindəki yeri təkcə poeziya ilə müəyyənləşmir. O, Azərbaycan xalqının tarixi taleyində çox mühüm rol oynamış dövlət xadimidir. Ona görə də Molla Pənah Vaqifin ziyarətinə gəlmək, onun məqbərəsinin açılışında iştirak etmək təkcə ədəbi, mədəni deyil, həmçinin siyasi məna daşıyan çox ciddi hadisədir".

Bu fikirləri AZƏRTAC-a Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü, "Azərbaycan" jurnalının baş redaktorunun müavini Əsəd Cahangir söyləyib. O deyib: "Təsadüfi deyil ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Vaqif məqbərəsi inşa edilib və 1982-ci ilin çovğunlu bir yanvar günündə açılışı olub. İllər sonra Şuşanı işğal edən ermənilər öz vandal hərəkətləri ilə Molla Pənah Vaqifin məqbərəsini dağıtmışdılar.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, ordumuzun rəşadəti, xalqımızın əzmi, qardaş və dost ölkələrin dəstəyi ilə torpaqlarımız, o cümlədən Şuşa şəhəri düşmən tapdağından azad olundu. Hazırda burada sürətlə quruculuq işləri gedir. Təmir və bərpa edilmiş, yenidən qurulmuş Vaqif muzey-məqbərə kompleksinin açılışı oldu. Açılışa ziyalılar, şairlər, yazıçılar dəvət olunmuşdu. Tədbir yüksək səviyyədə keçdi. Görkəmli yazıçılar, şairlər öz ürək sözlərini dilə gətirdilər.

Prezident İlham Əliyev Vaqif Poeziya Günlərinin açılış mərasimində çıxışı zamanı həmçinin Vətən müharibəsinin tarixi əhəmiyyətindən danışdı.

Qeyd edim ki, Vaqif məqbərəsinin ikinci dəfə açılışı siyasi, mədəni, ümumxalq əhəmiyyətli hadisədir".

## *Akademik Nizami CƏFƏROV:* "Vaqifin məqbərəsi Şuşanın azadlığının rəmzi olacaq"

"Dünən Vaqif Poeziya Günlərinin açılışı oldu. Azərbaycan Prezidenti açılış mərasimində çıxış etdi. Bizim böyük sənətkarlarımız danışdılar. Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi artıq hazırdır. Bu məqbərə bizə tarixən qürur verən çox mətləbləri özündə yaşadır. Məqbərə vaxtilə olduğu kimi, bundan sonra da Şuşanın rəmzlərindən biri olacaq. Həm də bu məqbərə Şuşanın azadlığının rəmzi olacaq. Bu azadlıq əbədi olacaq".



Bu fikirləri AZƏRTAC-a Milli Məclisin deputatı, akademik Nizami Cəfərov söyləyib.

Nizami Cəfərov deyib: "Vaqif Poeziya Günləri çərçivəsində keçirilən müxtəlif tədbirlərdə şairlərimiz şeirlər dedilər, Vaqifin yaradıcılığı, dövrü, tarixi ilə bağlı alimlər öz fikirlərini bildirdilər.

Biz Şuşaya Zəfər yolu ilə gəldik. Bu, bizim hərbi qələbəmizin nəticəsidir. Bu qələbənin arxasınca iqtisadi qələbələr gəlir. Təbii ki, mənəvi, ruhi qələbələrdən, milli şüurdan kənarda bu qələbələr də olmaz. Bu, dövlətimizin siyasəti ilə davam etdirilir. Nə qədər ki, bizim torpaqlarımızda dahilər mövcuddur və biz onlar haqqında düşünürük, danışırıq, onların yaradıcılığını öyrənirik, bu, bizim müstəqilliyimizə köməkdir, arxadır. Əminəm ki, keçirilən bu görüşlər azərbaycanlıların yadından çıxmayacaq. Bütün dünya görür ki, Azərbaycan xalqı öz dahilərinə hansı münasibəti göstərir, hansı mədəniyyətin sahibidir. Azərbaycan xalqı əlinə imkan düşən kimi tikir, qurur, yaradır. Bu gün görülən işlər ümumi böyük işin, böyük zəfərin tərkib hissəsidir, onun mükəmməlləşməsidir, həmişə də belə davam edəcək. Çünki Azərbaycan xalqının təbiəti, ruhu yalnız qurmaq, yaratmaq, dünyada harmoniya formalaşdırmaqdır".

Vaqif Poeziya Günləri çərçivəsində keçirilən simpoziumdan söz açan akademik deyib: "Bu simpozium ədəbiyyat söhbətləri ilə bağlı idi. Ədəbiyyat təkcə ədəbiyyat deyil, həm də bir xalqın varlığıdır, düşüncəsidir. Ulu Öndər Heydər Əliyevin siyasəti ədəbiyyat, mədəniyyət məsələlərinə xüsusi təsir göstərib. Ona görə də biz Ümummilli Liderimizi həm də ədəbiyyat yaradan bir şəxsiyyət kimi qəbul edirik. Bugünkü simpoziumda həmçinin Prezident İlham Əliyevin gördüyü işlərdən bəhs olundu. Görülən işlər bizim ədəbiyyatımızda daha dərindən təbliğ olunmalıdır. Xalqımızın mübarizəsi tərənnüm edilməlidir. Çünki xalqımız ədəbiyyata qarşı çox həssasdır".

## *Günay ƏFƏNDİYEVA:* "Şuşa yenidən öz tarixi günlərini yaşayır"

"Bizim hər birimiz, ümumilikdə türk dünyası üçün sevindirici və qürurverici haldır ki, Azərbaycanın ayrılmaz parçası olan Qarabağ, Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa yenidən öz tarixi günlərini yaşayır".

Bu fikri AZƏRTAC-a Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva deyib.

"İllər sonra burada Azərbaycanın böyük sənətkarlarının, klassiklərimizin, müasir şairlərimizin şeirləri səsləndirilirsə, Azərbaycan muğamının səsi bütün dünyaya yayılırsa, "Qarabağ şikəstəsi" dinlənildikdə artıq ürək yanğısı deyil, fəxarət hissi keçirilirsə, bu o deməkdir ki, Şuşa yenidən öz nəfəsini alır, xoşbəxt günlərinə qayıdır.

Bizə bu Qələbəni bəxş edən, gözəl Qarabağımızı, Azərbaycan mədəniyyətinin incisi Şuşanı bizə qaytaran başda Ali Baş Komandan olmaqla bütün qəhrəmanlarımıza minnətdarıq.

Əminəm ki, yenidən burada bir-birindən gözəl tədbirlər, konsertlər, sərgilər təşkil ediləcək, Qarabağ öz mədəni irsi ilə bir daha dünyanın incilərindən olacaq. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu da bu səpkidə bir çox layihələrini Azərbaycanın bu dilbər guşələrində keçirəcək", - deyə G.Əfəndiyeva bildirib.

## *Xəyal RZA:* "Qısa bir zamanda Şuşada böyük quruculuq işləri görülüb"

"Xoşbəxt günlər yaşayırıq. 30 illik ayrılıqdan sonra Şuşamıza qovuşduq. Bu günü bizə yaşadan Ali Baş Komandana, bütün əsgərlərimizə, şəhidlərimizə borcluyuq. İki gündür ki, möhtəşəm Vaqif Poeziya Günləri tədbirinin iştirakçısı və şahidiyik".

Bu fikirləri AZƏRTAC-a Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü, Mətbuat xidmətinin rəhbəri Xəyal Rza söyləyib.

Xəyal Rza deyib: "Vaqif Poeziya Günlərinin açılış mərasimində Prezident İlham Əliyev dərin məzmunlu çıxış etdi, bir çox mövzulara toxundu. Həm 44 günlük müharibənin çətinliklərindən, Azərbaycanın möhtəşəm zəfərindən, həm də şəhidlərimizdən, qazilərimizdən, ordumuzdan söz açdı və həmişə olduğu kimi bir daha erməni vandallarına xəbərdarlıq etdi: Şuşa bizimdir, Şuşa azaddır".

Qısa bir zamanda Şuşada böyük quruculuq işləri görüldüyünü vurğulayan Xəyal Rza istər "Xarıbülbül" Musiqi Festivalının, istərsə də Vaqif Poeziya Günlərinin keçirilməsinin böyük əhəmiyyət daşıdığını deyib.

## *Elnarə AKİMOVA:* "Vaqif Poeziya Günlərinin hər il keçirilməsi şairin yaradıcılığını ədəbiyyatşünaslığımızın gündəmində saxlayacaq"

"Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı çox əlamətdar hadisədir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada keçirilən Vaqif Poeziya Günləri ədəbiyyat tariximizdə mühüm əhəmiyyət kəsb edir. Poeziya günləri çərçivəsində müxtəlif tədbirlər keçirildi. Şeir məclisləri təşkil olundu, musiqi dinlədik, şair və yazıçılarımız çıxışlar etdilər".

Bu barədə AZƏRTAC-a AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Uşaq ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru Elnarə Akimova söyləyib.

Ədəbiyyat İnstitutunun şöbə müdiri deyib: "Vaqif Poeziya Günləri çərçivəsində keçirilən simpoziumda Molla Pənah Vaqifin yaradıcılığına xüsusi yer ayrıldı. Şairin yaradıcılığının ədəbiyyata təsiri məsələləri müzakirə olundu.

Düşünürəm ki, Vaqif Poeziya Günlərinin ənənəvi olaraq hər il keçirilməsi şairin yaradıcılığını ədəbiyyatşünaslığımızın gündəmində saxlayacaq".

## *Xalq artisti Mehriban ZƏKİ:* "Şuşada mədəniyyət tədbirlərinin təşkili çox önəmlidir"

"İlk növbədə onu deyim ki, nəhayət, böyük bir həsrətdən sonra biz Şuşadayıq. Azərbaycanın qədim şəhəri işğaldan azad edilib. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan olunub. Daha əvvəl burada "Xarıbülbül" festivalı keçirilib. Vaqif Poeziya Günləri bu şəhərdə keçirilən ikinci mədəni tədbirdir. Belə tədbirlərin təşkili çox önəmlidir. Çünki bir ölkənin tarixini, keçmişini öyrənmək üçün mütləq onun mədəniyyətinə də müraciət etmək lazımdır. Bu tədbir də məhz ona söykənir, ona arxalanır".

Bu fikirləri AZƏRTAC-a Azərbaycanın Xalq artisti Mehriban Zəki söyləyib. Vaqif Poeziya Günləri çərçivəsində keçirilən tədbirlərin rəngarəngliyini qeyd edən müsahibimiz aktyorlar tərəfindən də klassik poeziyadan nümunələr təqdim olunduğunu bildirib.

## *Zahid ABBASOV:* "Ötən əsrin 80-ci illərinin axırlarından bu günə qədər Şuşanın mədəniyyətini qorumağa çalışmışıq"

"Ulu Öndərin rəhbərliyi ilə 1982-ci ildə Şuşada Molla Pənah Vaqifin məqbərəsinin açılışında iştirak etdik və bu tədbir mənim taleyimdə çox böyük rol oynadı".

Bunu AZƏRTAC-a Şuşa şəhəri üzrə nümayəndə Zahid Abbasov bildirib. O deyib: "Həmin tədbirdə bütün ziyalılarımız iştirak edirdi. O zaman mənim 29 yaşım var idi. Heydər Əliyev tədbirdə iştirak edən ziyalıların çoxluğuna təəccübləndi. İki gündən sonra məni məsul vəzifəyə təyin etdilər. O vaxtdan çalışıram ki, Heydər Əliyev ideyalarını müdafiə edim. Ötən əsrin 80-ci illərinin axırlarından bu günə qədər Şuşanın mədəniyyətini qorumağa çalışmışıq və həmişə düşünmüşəm ki, bu əmanəti Şuşaya qaytarmalıyıq. İndi çox şadam ki, biz Qarabağa qayıtdıq. Buna görə Ali Baş Komandan İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya şuşalıların adından dərin təşəkkürümü bildirirəm. Çünki onlar bu möhtəşəm sevinci bizə yaşatdılar. Biz də öz növbəmizdə çalışacağıq ki, Azərbaycan mədəniyyətini bütün dünyada təbliğ edək".

## *Ələmdar CABBARLI:* "Vaqif məqbərəsinin ikinci dəfə açılışı Azərbaycan ədəbiyyatına yeni mövzular və obrazlar gətirəcək"

"Həyatımın ən xoş günlərini, inanılmaz hisslər yaşayıram. Qədim şəhərimiz, mədəniyyət paytaxtımız olan Şuşa Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əsgərlərimizin, qazilərimizin, şəhidlərimizin canı, qanı bahasına işğaldan azad olunub. Biz burada aldığımız hər nəfəsə görə şəhidlərimizə borcluyuq. Allah onlara rəhmət eləsin. Bu tədbirin çox böyük ictimai, mədəni, siyasi əhəmiyyəti var".

Bu fikirləri AZƏRTAC-a Bakı Dövlət Universitetinin dosenti Ələmdar Cabbarlı söyləyib. O deyib: "Hələ XX əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi ilə həyatın bütün sahələrində olduğu kimi, mədəniyyət, ədəbiyyat sahəsinə də diqqət göstərilməsinə başlanılıb. Ümummilli Lider hər zaman Azərbaycan ədəbiyyatının hamisi olub. Görkəmli şairlərin, şəxsiyyətlərin yubileylərinin keçirilməsi, onlara abidələr ucaldılması ənənələri Heydər Əliyev tərəfindən qoyulub. Molla Pənah Vaqifin məqbərəsinin ikinci dəfə açılışı Heydər Əliyev siyasi kursunun davamçısı Prezident İlham Əliyevin Azərbaycan ədəbiyyatına göstərdiyi qayğıya daha bir bariz nümunədir. Bunun mənəvi əhəmiyyəti böyükdür. İnanıram ki, bu hadisə Azərbaycan ədəbiyyatına yeni mövzular, yeni obrazlar gətirəcək. Bildiyimiz kimi, 30 illik işğal dövründə ədəbiyyatımızda daha çox həsrət, itirilmiş yurd acısı öz əksini tapmışdı. Artıq ədəbiyyatımızda qələbə ruhlu şeirlər, poemalar, dram əsərləri, romanlar yazılacaq. Bu tədbir də onlar üçün stimul olacaq. Bu tədbir haqqında gələcəkdə məqalələr yazılacaq, tədqiqatlar aparılacaq".





# Şuşa dirçəliş yolundadır






# Şuşa sürətlə inkişaf edir

*Əvvəli 1-ci səh.*

## Uğurlu başlanğıc

İndi növbə bu tarixi şəhərin əzəmətini bərpa etmək, onu dirçəltməkdi.

Prezident İlham Əliyev 2021-ci ilin 14 yanvarında Şuşaya "Zəfər yolu" ilə səfər edərək bu tarixi missiyanın uğurlu təməlini qoydu.

İlham Əliyev bu səfəri zamanı illərdir didərgin həyatı yaşayan Natəvanın, Üzeyir bəyin, Bülbülün güllələnmiş büstlərini də öz doğma yerlərinə qovuşdurdu, onların da ruhları şad oldu. Dahi şəxsiyyətlərimizin büstlərinin Şuşaya - öz əzəli vətənlərinə qaytarılması qələbəmizin daha bir sarsılmaz rəmzinə çevrildi.

İki aydan sonra, martın 16-da dövlət başçısı yenidən Şuşaya üz tutdu, Vaqifin məqbərəsində tezliklə yenidənqurma işlərinin başlayacağının, məscidlərin bərpası ilə bağlı müvafiq göstərişlər verildiyinin, otuz il ərzində ermənilərin qurutduğu bütün bulaqlarımızın bərpa ediləcəyinin və digər möhtəşəm planların xoş xəbərini verdi.

Daha sonra Ali Baş Komandan bizi mayın 12-də ölkəmizin tarixində əlamətdar günlərdən olan və uzun fasilədən sonra Şuşada, Cıdır düzündə keçirilən "Xarıbülbül" festivalından salamladı. O, qürurla qeyd etdi ki, biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək və builki festival Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə edir: "Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır".

Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan edən İlham Əliyev "Xarıbülbül" festivalındakı çıxışında onu da bildirdi ki, gələn il Şuşanın 270 illiyi qeyd ediləcək. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və o vaxtdan işğal dövrünə qədər bu şəhərdə həmişə azərbaycanlılar yaşayıblar: "Ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi".

## Tarix təkrarlanır

İlham Əliyevin Şuşaya möhtəşəm və unudulmaz səfərlərindən biri də avqustun 29-da oldu. Prezident "Qarabağ" hotelinin, dahi Azərbaycan şairi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin bərpadan sonra açılışında, Molla Pənah Vaqifin büstünün açılışında, Bülbülün ev-muzeyinin bərpadan sonra açılışında, dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışında iştirak etdi.

2021-ci ilin 30 avqustunda bərpa edilən Vaqifin möhtəşəm məqbərəsinin önündə Vaqif Poeziya Günlərinə start verildi.

Poeziya günlərinin açılışında iştirak edən Prezident İlham Əliyev bildirdi ki, şəhərdə artıq çox böyük işlər görülüb və Şuşaya ikinci-üçüncü dəfə gələnlər bunu görürlər.

İlham Əliyev söylədi ki, müharibədən sonra ilk dəfə Şuşaya bu il yanvarın 14-də gəlməsinin tarixi heç də təsadüfən seçilməmişdi. Belə ki, 39 il əvvəl burada Ulu Öndərin iştirakı ilə Vaqifin məqbərəsi açılmışdı və məhz yanvarın 14-də mənim buraya gəlməyimin çox böyük rəmzi mənası var idi: "Buraya ilk səfərimdə ilk göstərişlərdən biri də o oldu ki, Vaqifin məqbərəsi bərpa edilsin, çünki vandallar bu məqbərəni dağıtmışdılar, sökmüşdülər".

Prezident bir daha vurğuladı ki, Şuşanın bərpası ilə bağlı qısa müddət ərzində böyük işlər görülüb. İlk növbədə, "Zəfər yolu" çəkilib. Magistral yol da çəkilir, Şuşanın elektrik təsərrüfatı bərpa edilib, yarımstansiya tikilib. Şuşaya suyun verilməsi bərpa edilib və indi iki mənbədən Şuşaya su gəlir. Şuşanın tarixi abidələrinin bərpasına start verilib. Vaqifin məqbərəsi artıq bərpa edilib. Ermənilər tərəfindən dağıdılan Vaqifin büstü bərpa edilib və ikinci açılışı həyata keçirilib. Üç məsciddə təmir-bərpa işləri gedir, Yuxarı Gövhər ağa məscidinin təmiri bitmək üzrədir. Saatlı və Aşağı Gövhər ağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verilib. Bu məscidlərin təmirini Heydər Əliyev Fondu öz üzərinə götürüb. Natəvan bulağı bərpa edilib...

## Şuşanın baş planı təqdim edildi

Prezidentin Şuşaya növbəti səfəri çərçivəsində əlamətdar hadisələrdən biri də şəhərin müfəssəl hazırlanmış baş planı əsasında tikiləcək yeni yaşayış kompleksinin təməl daşının qoyulması oldu.

Dövlət başçısına təqdim edilən Şuşa şəhərinin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulub. Bu layihələrin icrasından sonra Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

Təqdim olunan baş planda Şuşanın orta, yüksək və qarışıq sıxlıqlı olan yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb.

Şəhərdə uzunluğu 36,2 kilometr olan mövcud yollarla yanaşı, həm də 17,6 kilometr yeni yolun inşası da nəzərdə tutulur. Həmçinin şəhərin baş planında ictimai dayanacaqların da yerləşmə yerləri müəyyən olunub. Bu dayanacaqlar elə qoyulacaq ki, şəhərin küçələrinə giriş-çıxışa maneə olmasın.

Baş plan hazırlanarkən şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlərin inşası da nəzərdə tutulur.

Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulur. Beləliklə, yaşayış massivində 25 binanın olacağı planlaşdırılır. Avqustun 29-da təməli qoyulan 1-ci məhəllədə 3, 4 və 5 mərtəbəli binalar Şuşaya xas memarlıq üslubu ilə tikiləcək.

İlham Əliyev söylədi ki, bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir. İndi şuşalılar həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, həm də burada artıq açılmış obyektlərdə işlə təmin edilirlər.

Gündən-günə Şuşa inkişaf edir, tarixi əzəmətini bərpa edir və sürətlə 30 ilin o tayındakı xoşbəxt çağlarına qanad açır. Şuşanın ən böyük sevinci isə illərdir həsrətini çəkdiyi doğma sakinləri ilə yenidən görüşməsi, qovuşmasıdır...

Doğma diyarlarından zorla didərgin salınan şuşalılar, düz 29 ildən sonra sevinc göz yaşları ilə Şuşanın görüşünə gəliblər. Hər səfərlərində də mədəniyyət paytaxtımızın adına yaraşan möhtəşəmliyin şahidi olub qürurlanırlar...

Doğma sakinlərinin Şuşada seyr etdikləri bütün bu xoş mənzərələr isə, tezliklə Şuşaya böyük qayıdışın müjdəsindən xəbər verir...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***



# Şuşaya əbədi günəş doğub

*Əvvəli 1-ci səh.*

Şuşada yaşayıb, yaratmış M.P.Vaqifin məqbərəsinin açılışı təkcə ədəbi-mədəni hadisə deyildi...

Ulu Öndər məqsədyönlü şəkildə 1923-cü ildə dağlıq və aran hissələrinə bölünmüş Qarabağın təsərrüfat və iqtisadi cəhətdən daha sıx birləşdirilməsinə çalışırdı. Çünki erməni millətçiləri Dağlıq Qarabağın Azərbaycanın digər rayonları ilə guya iqtisadi və təsərrüfat əlaqələrinin olmadığını, əhalinin ümumi sayında ermənilərin çoxluğunu əsas gətirərək vilayətin Ermənistana birləşdirilməsini tələb edirdilər. Onların bu niyyətlərinin qarşısını almaq üçün Dağlıq Qarabağın Aran Qarabağla və digər rayonlarla əlaqəsini daha da sıxlaşdırmaq, strateji əhəmiyyətli kommunikasiyaları genişləndirmək lazım gəlirdi. Ümummilli Liderin iştirakı ilə 1979-cu il yanvarın 12-də Ağdam-Xankəndi dəmir yolu istifadəyə verildi. Həmin dəmir yolu xətti ilə muxtar vilayətin respublikanın digər rayonları ilə daha sıx iqtisadi əlaqəsi yaradıldı. Bu, Ulu Öndər Heydər Əliyevin strateji addımı və böyük tarixi xidməti idi.

Həmin gün Şuşaya gələn Ümummilli Lider şəhərdə Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına ayrıca diqqət ayrılması barədə xüsusi göstəriş verdi. Ulu Öndər Azərbaycan poeziyasının klassikləri M.P.Vaqifin və Xurşidbanu Natəvanın yaşadığı yerləri ziyarət edib, Şuşa rayonunun rəhbərliyinə demişdi: "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır". Bundan az müddət sonra Şuşa şəhərini tarix-memarlıq qoruğu elan edən qərar qəbul olundu. 1982-ci il iyulun 29-dan - avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Heydər Əliyevin iştirakı ilə Şuşada şair Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu. Ulu Öndər Şuşada "Poeziya evi"nin açılışında, Vaqif Poeziya Günlərində iştirak etdi, Üzeyir bəy Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış oldu, onların qorunmasına dair tapşırıqlar verdi.



1988-1993-cü illərdə Dağlıq Qarabağ və ətrafındakı yeddi Azərbaycan rayonu Ermənistan silahlı güvvələri tərəfindən işğal edildi. Qarabağdakı, o cümlədən Şuşadakı bütün tarixi abidələr, oranın Azərbaycan torpağı olduğunu sübut edə biləcək nə vardısa hamısı erməni vandalları tərəfindən darmadağın edildi. Zaman keçdi, tarixi ədalət öz yerini aldı. Şuşa işğaldan azad edildi. Qələbədən sonra yanvarın 14-də Şuşada Vaqifin məqbərəsinin qalıqlarını ziyarət edən ölkə rəhbəri onun bərpa olunması barədə göstəriş verdi.

2021-ci il avqustun 29-da Şuşada günəşli, aydın hava vardı. Həmin gün Şuşanı azad etmiş Ali Baş Komandan, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Molla Pənah Vaqifin bərpa edilmiş möhtəşəm məqbərəsinin açılışı oldu.

Məqbərədə təmir-bərpa və yenidənqurma işləri Heydər Əliyev Fondu tərəfindən aparılıb. 2021-ci ilin mart ayından başlayaraq türbə ilkin mərhələdə konstruktiv müayinədən keçirilərək, tələb olunan hissələr üzrə gücləndirmə tədbirləri araşdırılıb və bu çərçivədə işçi layihələr hazırlanıb. Məqbərənin bərpasını həyata keçirənlər ərazidə məqbərədən qalan hər xırda detaldan istifadə ediblər. Şairin ruhunu özündə daşıyan hər bir daş parçası yenidən onun məqbərəsinə hörülüb.

Məqbərənin bərpadan sonra açılış mərasimi həm də Vaqif Poeziya Günlərinin bərpa olunması ilə müşayiət olundu. Dövlət başçısının ətrafında 39 il əvvəl Heydər Əliyevin yanında olduğu kimi Azərbaycanın ədəbiyyat, mədəniyyət və sənət adamları toplanmışdı. Şairlər Vaqifin və özlərinin şeirlərini səsləndirib, Tanrının lütfünə şükranlıqlarını bildirdilər. Yazıçı Anar dövlət başıçısından AYB-nin növbəti qurultayının Şuşada keçirilməsinin xeyir-duasını aldı. Demək, irəlidə Şuşada hələ çox sənət və ədəbiyyat bayramları olacaq.

Abidənin ətrafında 39 il il əvvəl də olduğu kimi qızıl gül kolları əkilib. Bir də Şuşanın dağlarını qara buludlar almayacaq, o dağlar yalnız təbii ağ dumana, təbii ağ örpəyə bürünəcək. Şuşaya əbədi günəş doğub, Şuşaya yeni nəfəs gəlib.

***Ramilə QURBANLI, "Azərbaycan"***

# İdarələrarası Mərkəzin "Enerji təminatı məsələləri üzrə" İşçi Qrupunun növbəti iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin "Enerji təminatı məsələləri" İşçi Qrupunun növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində enerji infrastrukturunun bərpası və yenidən qurulması ilə bağlı həftə ərzində həyata keçirilmiş tədbirlər, həmçinin İşçi Qrupunun ötən iclaslarında qəbul edilmiş qərarların icrası ilə bağlı görülən işlər haqqında müvafiq dövlət qurumlarının nümayəndələri tərəfindən məlumat verilib.

Şuşa şəhərində strateji obyektlərin elektrik enerjisi ilə təminatı və istilik təchizatı ilə bağlı görülən işlərə dair müzakirələr aparılıb. Şəhərdə tikinti prosesi davam etdirilən elektrik yarımstansiyaları, elektrik xətləri və istilik qazanxanaları ilə bağlı məlumatlar diqqətə çatdırılıb.

İşğaldan azad edilmiş Cəbrayıl rayonu ərazisindəki ümumi gücləri müvafiq olaraq 200 MVt və 80 MVt olacaq "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyalarının tikintisi ilə bağlı görülən işlər nəzərdən keçirilib. Qeyd edilən ərazilərdə qazpaylama infrastrukturunun yaradılması,



qaz təsərrüfatı obyektlərinin inventarlaşdırılması, balansa götürülməsi və mövcud infrastrukturun mühafizəsi barədə fikir mübadiləsi aparılıb. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Xarici jurnalistlər Cəbrayılda erməni vandalizminin şahidi olublar

Avqustun 31-də Türk Şurasına üzv olan və müşahidəçi dövlətlərin media orqanlarının nümayəndələri Füzuli rayonundan sonra Cəbrayıla səfər ediblər.

AZƏRTAC xəbər verir ki, xarici jurnalistlər ermənilər tərəfindən dağıdılan şəhərin qalıqları ilə tanış olublar. Bildirilib ki, işğaldan öncə Cəbrayıl tarixi abidələrin, dini məbədlərin zəngin olduğu məkan kimi, eləcə də səfalı təbiəti ilə tanınırdı. Lakin işğaldan sonra həmin Cəbrayıldan əsər-əlamət qalmayıb, ermənilər buradan müdafiə xarakterli ərazi kimi istifadə edib.

Türk Şurasına üzv olan və müşahidəçi dövlətlərin media orqanlarının nümayəndələri qəbiristanlıqlardan birinə baş çəkib, burada qəbir daşlarının sındırılmasının, qəbirlərin qazılaraq cəsədlərin çıxarılmasının şahidi olublar. Xarici media nümayəndələri bu vandalizmin insanlıqla bir araya sığmadığını vurğulayıblar.






Qırğızıstanı təmsil edən jurnalistlər Cəbrayılda qəbiristanlıqda Quran oxuyaraq, burada basdırılan Cəbrayıl sakinlərinin, eləcə də şəhidlərimizin ruhuna dualar ediblər.

Türkiyənin Anadolu Agentliyinin əməkdaşı Burcu Çalık Göçümlü təəssüratlarını bölüşərək bildirib ki, ermənilər məzarları qazaraq meyitləri çıxarıblar, onların qızıl dişlərini götürüblər: "Bu cür vəhşilik, barbarlıq edənlər insan ola bilməzlər. Ümid edirəm ki, buralar yenidən canlanacaq və azərbaycanlıların öz yurdlarında xoşbəxt yaşadıqlarının şahidi olacağıq".

Erməni vandalizmi ilə tanış olan makedoniyalı jurnalist Boyan Stoykovski isə deyib ki, geri qayıtdıqdan sonra həm Balkan ölkələri, həm də beynəlxalq ictimaiyyət üçün yazılar hazırlayacaq. "Yazılarımda bütün bu vəhşilikləri olduğu kimi qeyd edəcəyəm. Qoy, bütün dünya bu vandalizmi görsün", - deyə o, əlavə edib.

# *Anadolu Agentliyinin əməkdaşı:* "Bu cür vəhşilik, barbarlıq edənlər insan ola bilməzlər"

"Azərbaycana ilk dəfədir gəlirəm. Bu gün işğaldan azad olunmuş ərazilərə səfər etdik. Bu yerlər erməni vandalları tərəfindən viran qoyulub, dağıdılıb. Ermənilər məzarları qazaraq meyitləri çıxarıblar, onların qızıl dişlərini götürüblər".



Bu sözləri AZƏRTAC-a işğaldan azad olunmuş Cəbrayıla səfər edən Türkiyənin Anadolu Agentliyinin əməkdaşı Burcu Çalık Göçümlü söyləyib. "Bu cür vəhşilik, barbarlıq edənlər insan ola bilməzlər. Ümid edirəm ki, buralar yenidən canlanacaq və azərbaycanlıların öz yurdlarında xoşbəxt yaşadıqlarının şahidi olacağıq", - deyə o əlavə edib.

Qeyd edək ki, avqustun 31-də Türk Şurasına üzv olan və müşahidəçi dövlətlərin media orqanlarının nümayəndələri Füzuli və Cəbrayıl rayonlarında səfərdə olublar. Məqsəd işğal dövründə ermənilər tərəfindən Azərbaycan ərazisində törədilən vəhşiliklər, dağıdılan tarixi abidələr və yerlə-yeksan olunan yaşayış əraziləri barədə məlumat toplamaqdır.

# *Makedoniyalı jurnalist:* "Ümid edirəm ki, bir daha bu cür vandalizm səhnələri ilə qarşılaşmayacağıq"

"Ümid edirəm ki, bir daha bu cür vandalizm səhnələri ilə qarşılaşmayacağıq və bölgə çiçəklənəcək, öz inkişaf dövrünü yaşayacaq".



Bu sözləri AZƏRTAC-a makedoniyalı jurnalist Boyan Stoykovski söyləyib.

Erməni işğalından azad olunmuş Füzuli və Cəbrayıl rayonlarında vandalizm aktları ilə tanış olan makedoniyalı jurnalist deyib: "Geri qayıtdıqdan sonra həm Balkan ölkələri, həm də beynəlxalq ictimaiyyət üçün yazılar hazırlayacağam. Yazılarımda bütün bu vəhşilikləri olduğu kimi qeyd edəcəyəm. Qoy, bütün dünya bu vandalizmi görsün".

Qeyd edək ki, avqustun 31-də Türk Şurasına üzv olan və müşahidəçi dövlətlərin media orqanlarının nümayəndələri Füzuli və Cəbrayıl rayonlarında səfərdə olublar. Məqsəd işğal dövründə ermənilər tərəfindən Azərbaycan ərazisində törədilən vəhşiliklər, dağıdılan tarixi abidələr və yerləyeksan olunan yaşayış əraziləri barədə məlumat toplamaqdır.



# İqtisadi inkişaf və sosial rifah



# Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyəti Avropa və Asiya ölkələri üçün də böyükdür




44 günlük müqəddəs savaşda Azərbaycanın möhtəşəm qələbəsinin Avrasiyanın geoiqtisadi xəritəsində yaratdığı yeni imkanlar beynəlxalq nəqliyyat sisteminin bütövlükdə yenidən formalaşdırılması reallığını ortaya qoymuşdur. Artıq bir çox Asiya ölkəsi bu yeni imkanların fərqindədir. Xüsusilə bu zaman Mərkəzi Asiya ölkələri yeni bazarlara çıxmaq üçün Zəngəzur dəhlizinin iqtisadi səmərəsini önə çəkirlər.

Bu da səbəbsiz deyil. Dünya iqtisadiyyatının əsas lokomotivlərindən sayılan Çindən gələn yüklərin Mərkəzi Asiya marşrutu ilə daşınması potensialı, eləcə də Süveyş kanalından keçən dəniz yoluna alternativ nəqliyyat dəhlizinin formalaşdırılması Azərbaycanın, həmçinin Zəngəzur dəhlizinin vacib nəqliyyat arteriyasına çevrilməsinə şərait yaradır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) təhlilçisi Coşqun Cəfərov yazır: "Elə yaxın dövrə nəzər salsaq görərik ki, Süveyş kanalında Evergreen gəmisinin qəzaya uğramasına gün ərzində qərbə daşınan yüklər üzrə 5,1 milyard və şərqə daşınan yüklər üzrə 4,5 milyard olmaqla ümumilikdə 9,6 milyard dollar zərərə səbəb olmuşdur. Ümumilikdə dünya ticarətinin təqribən 12 faizinin bu kanal vasitəsilə həyata keçirildiyini nəzərə alsaq, alternativ nəqliyyat arteriyalarının, o cümlədən Zəngəzur dəhlizi ilə Azərbaycanın Avrasiyanın nəqliyyat infrastrukturunda iqtisadi əhəmiyyətini görə bilərik".

Təhlilçi onu da qeyd edir ki, Mərkəzi Asiya ölkələrinin yeni nəqliyyat dəhlizlərindən, o cümlədən Azərbaycanın tranzit imkanlarından istifadədə marağı böyükdür: "Zəngəzur dəhlizi ilə bağlı qeyd olunması vacib olan məqamlardan biri də "Aşqabad müqaviləsi" ölkələrinin Avropaya reinteqrasiyası üçün yeni perspektivlərin yaratmasıdır. Belə ki, "Aşqabad müqaviləsi" Türkmənistan, Özbəkistan, Qazaxıstan, İran, Oman, Hindistan və Pakistan arasında Avrasiya regionunda nəqliyyat əlaqələrinin inkişafı və digər nəqliyyat dəhlizləri ilə birgə fəaliyyətin təmin edilməsi məqsədilə imzalanmışdır. Bu ölkələr vasitəsilə həyata keçirilən beynəlxalq yükdaşımaların Zəngəzur dəhlizindən Avrasiya bazarlarına çatdırılması Qarabağ regionunun iqtisadi potensialının artmasında xüsusi rol oynaya bilər".

Araşdırmada o da vurğulanır ki, Zəngəzur dəhlizinin tərkib hissəsi olacaq həm dəmir, həm də avtomobil yollarının inşası sürətlə davam edir. Müəllif şərhində tarixi torpaqlarımızdan keçəcək dəhlizə Qarabağ regionu daxilində magistral avtomobil yollarının birləşdirilməsinə xüsusi diqqət ayırır: "Belə ki, 101,9 kilometrlik 2 hərəkət zolaqlı "Zəfər yolu"nun inşası Füzuli rayonu ilə Şuşa şəhərini əlaqələndirməklə Qarabağ regionunda sosial-iqtisadi əlaqələrin dirçəlməsinə imkan yaradacaqdır. 123,8 kilometrlik və 4-6 hərəkət zolaqlı Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolu, 70 kilometrlik və 4 hərəkət zolaqlı Xudafərin-Qubadlı-Laçın yolu, 73 kilometrlik və 2 hərəkət zolaqlı Kəlbəcər-Laçın yolu, 13 kilometrlik və 4 hərəkət zolaqlı Füzuli-Hadrut yolu, 45 kilometrlik və 4 hərəkət zolaqlı Bərdə-Ağdam yolunun inşası Qarabağ regionunun, o cümlədən Azərbaycanın nəqliyyat dəhlizlərinə çıxışını çoxşaxəli etməklə buradan keçəcək xətlərin önəmini də artıracaqdır".

C.Cəfərov onu da diqqətə çatdırır ki, Azərbaycan, Ermənistan və Gürcüstan Türkiyə, Rusiya və İranla "3+3" formatında geosiyasi əməkdaşlıq edərək kommunikasiya xətlərinin yenidən bərpa edilməsi ilə beynəlxalq tranzit daşımalarda yeni iqtisadi ağırlıq mərkəzi yarada bilər: "Əlbəttə ki, bu əməkdaşlıq çərçivəsində Zəngəzur dəhlizinin siyasi və iqtisadi önəmi danılmazdır. Regionda digər həyata keçirilməsi nəzərdə tutulan layihələri dəyərləndirdikdə, Zəngəzur dəhlizinin region ölkələrinə daha ucuz alternativ çıxış imkanları danılmazdır".

Araşdırmada bir məqama da xüsusi diqqət ayrılır: uzun illərdir beynəlxalq maliyyə institutları, xarici dövlətlər, hətta Ermənistan belə, İran və Ermənistandan keçməsi nəzərdə tutulan və 3,5 milyard dollar dəyərində olan yeni dəmir yolu xəttinin maliyyələşdirilməsinə nail ola bilməyiblər.

Buna baxmayaraq, müəllif belə qənaətə gəlir ki, Zəngəzur dəhlizinin yaradılması ilə formalaşan yeni iqtisadi konyuktura Asiya və Avropanın nəqliyyat infrastrukturunda xüsusi önəmə malik olacaq.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## "Məşğulluq marafonu"na qoşulan işəgötürənlərin sayı 455-ə çatıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu ilin iyun ayında "Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!" devizi altında başladılan "Məşğulluq marafonu"na qoşulan işəgötürənlərin sayı artıq 455-ə çatıb.

Marafona qoşulmaqla şəhidlərimizin ailə üzvlərinin, Vətən müharibəsində yaralanmış qazilərimizin məşğulluğuna dəstəyini ifadə edən həmin işəgötürənlərin 234-ü dövlət, 221-i özəl müəssisələrdir.

Onlar tərəfindən marafona 2044 vakansiya təqdim edilib. Bu vakansiyalar üzrə işlə təmin olunanların sayı da 566-ya çatıb ki, onlardan 460-ı qazi, 106-sı şəhid ailəsi üzvləridir.

Hazırda vakansiyalar üzrə işlərə göndərişlərin verilməsi prosesi davam edir.

## İxrac edilən qeyri-neft məhsulları siyahısında pambıq mahlıcı birinci olub

Yanvar-iyul aylarında ixrac edilən qeyri-neft məhsulları siyahısında pambıq mahlıcı birinci olub.



Cari ilin yanvar-iyul ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (133,8 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pomidor (tomat) (128,2 milyon ABŞ dolları) ikinci, qızıl isə üçüncü (116,9 milyon ABŞ dolları) yerdə qərarlaşıb.

2021-ci ilin iyul ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında ilkin formalı polipropilen (15 milyon ABŞ dolları) birinci, azot gübrələr (12,7 milyon ABŞ dolları) ikinci və şaftalı (12,2 milyon ABŞ dolları) üçüncü olub.

## Ötən ay xarici vətəndaşlar bank kartları vasitəsilə 95,1 milyon manatlıq əməliyyat aparıblar

Cari ilin iyul ayında xarici vətəndaşların ölkəmizdə bank kartları vasitəsilə apardıqları əməliyyatların həcmi 95,1 milyon manat təşkil edib.

AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın avqust sayında bildirilib.

Qeyd edilib ki, yeddi ayda xarici vətəndaşların ölkəmizdə bank kartları vasitəsilə apardıqları əməliyyatların həcmi isə 288,2 milyon manat olub.

## Zərdabda əhalinin fasiləsiz elektrik enerjisi ilə təminatı istiqamətində tədbirlər görülür

Zərdab şəhərində və kənd yaşayış məntəqələrində əhalinin fasiləsiz elektrik enerjisi ilə təminatı istiqamətində tədbirlər davam edir.

Rayon icra hakimiyyətindən bununla əlaqədar AZƏRTAC-a verilən məlumatda bildirilir ki, cari ildə Zərdab şəhərinin 20 Yanvar və S.Abdullayev küçələrində 700 metr məsafədə 0,4 kilovoltluq açıq naqilli hava xətləri yeni metal dayaqlar basdırılmaqla SİP kabel xətti ilə əvəz olunub. Çəlmə, Çallı, Pərvanlı, Qoruqbağı kəndlərinin ərazilərində 0,4 kilovoltluq hava xətlərinin 1,86 kilometrlik hissəsi özüdaşıyıcı izolyasiyalı xətlə yenidən qurularaq istifadəyə verilib. Rayonun Böyük Dəkkə, Qaravəlli kəndlərinin hər birinə 1 ədəd 160 kilovoltluq kompleks transformator məntəqəsi tikilib istismara verilib. Habelə, Qoruqbağı kəndi ərazisində vətəndaşların müraciəti nəzərə alınaraq 0,4 kilovoltluq açıq naqilli hava xəttinin 1450 metri dəyişdirilərək yenidən qurulub.

## "Azexport.az" portalına 283,6 milyon dollarlıq ixrac sifarişləri daxil olub

Cari ilin yanvar-iyul aylarında "Azexport.az" portalına 283,6 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın avqust sayında bildirir ki, bu ilin iyul ayında "Azexport.az" portalına daxil olan ixrac sifarişlərinin dəyəri isə 47 milyon ABŞ dolları təşkil edib. İyulda "Azexport.az" portalına ən çox ixrac sifarişi pambıq mahlıcı, toyuq əti, tütün, çay, pambıq toxumu, noxud, nar şirəsi, meyvə tamlı süd, tikinti materialı, toyuq yumurtası, çay, şərab, bitki yağı, biyan kökü, şirniyyat, tibbi zəli və sair mallara daxil olub.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin iyulun 31-nə kimi (55 ay ərzində) "Azexport.az" portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 2,5 milyard ABŞ dolları təşkil edib.

## Azərbaycanda özəl baytarlıq xidməti fəaliyyətə başlayır

Azərbaycanda özəl baytarlıq xidmətinə keçid prosesinə start verilib. Bununla əlaqədar Bakıda "Özəl baytarlıq: Fermerlərə təkmil, rəqabətli və keyfiyyətli xidmət" mövzusunda konfrans keçirilib.

Tədbirdə bildirilib ki, özəl xidmətə keçdikdən sonra baytarlıq mütəxəssisləri sağlam rəqabət mühitində çalışacaqlar. Bu rəqabət mühiti onlara öz bilik və bacarıqlarını daha da inkişaf etdirmək, müasir standartlara uyğun xidmət keyfiyyətlərinə sahib olmaq zərurəti yaradacaq. Rəqabət mühiti son nəticədə heyvandarlıqda göstərilən xidmətlərin keyfiyyətini artıracaq ki, bundan da həm mütəxəssislərimiz, həm də fermerlərimiz faydalanacaqlar.

Qeyd edək ki, özəl baytarlıq xidmətinə keçid ölkədə mövcud olan və dövlət büdcəsindən maliyyələşən 798 sahə baytarlıq məntəqəsində çalışan 1624 sahə baytar həkimini əhatə edir. Baytar həkimlər bu gündən ilin sonunadək mərhələli şəkildə Aqrar Xidmətlər Agentliyi ilə xidməti müqavilə əsasında fəaliyyətə başlayırlar. Özəl xidmətə keçiddən sonra Aqrar Xidmətləri Agentliyi profilaktikası, diaqnostikası və ləğvi dövlət büdcəsindən maliyyələşən xüsusi təhlükəli xəstəliklərə qarşı aparılan tədbirlərin icrasını (peyvəndlənmə, qan nümunələrinin toplanması və s.) xidməti müqavilə əsasında özəl baytar həkimlərə həvalə edəcək. Bundan başqa, özəl xidmətə başlamış baytarlar xidməti müqavilə əsasında ət və ət məhsullarının, süd və süd məhsullarının inspeksiyasını, xəstəliklərə qarşı aktiv və passiv müşahidələri, heyvanların identifikasiyasını və s. tapşırıqları da icra edəcəklər.



Fermerlərin vəsati hesabına maliyyələşən digər xəstəliklər isə özəl baytarlarla fermerlər arasında müqavilə və ya razılaşma əsasında ödənişli şəkildə həyata keçiriləcək. Özəl xidmət fermerə də istədiyi baytarın işini seçmək və səmərəli, sərfəli, keyfiyyətli xidmət almaq imkanı verəcək. Bundan əlavə, gələcəkdə ölkədə baytarlıq təcrübəsinin səmərəli idarə edilməsi, baytarlıq sisteminin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, baytar həkimlərin və feldşerlərin peşəkar fəaliyyətinin tənzimlənməsi, heyvandarlıq məhsullarının xarici bazarlara çıxışının təmin olunması məqsədilə qeyri-kommersiya qurumu - Baytarlıq Statuar Orqanının (BSO) yaradılması da nəzərdə tutulur.

Dövlət və özəl sektorda baytarlıq xidmətlərinin tənzimlənməsinə dəstək olmaq, baytar həkimlərinin qeydiyyatı və reyestrinin aparılması, özəl baytar həkimlərinin ortaq maraqlarını dövlət və qeyri-dövlət orqanlarında təmsil və müdafiə etmək bu quruma həvalə olunacaq.

# Yeni iş yerlərinin yaradılması əhalinin sosial müdafiəsinin əsas istiqaməti olaraq qalır

*Əvvəli 1-ci səh.*

Təsadüfi deyil ki, ölkə ərazisində 2020-ci il ildə 9619 yeni müəssisə və təşkilat yaradılmış və onların 83,2 faizi paytaxtda, qalanı digər iqtisadi rayonlarda işə başlamışdır. İl ərzində respublikanın bütün iqtisadi və inzibati rayonları üzrə 128979, o cümlədən ilin dördüncü rübündə 22742 yeni iş yeri açılmışdır.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin birinci yarısında isə 30,9 min yeni iş yeri yaradılmışdır. Bunların 89,1 faizi qeyri-dövlət sektoruna aiddir.

İş yerlərinin 11,7 faizi yeni yaradılmış, 85,5 faizi mövcud, 0,6 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 2,2 faizi digər tədbirlər üzrə açılmışdır. Onların 75,8 faizi Bakı şəhərinin, 0,6 faizi Naxçıvan Muxtar Respublikasının, 23,6 faizi digər regionların payına düşmüşdür. Belə ki, yeni iş yerlərinin 4,6 faizi Gəncə-Daşkəsən, 4 faizi Abşeron-Xızı, 3,2 faizi Lənkəran-Astara, 2,8 faizi Quba-Xaçmaz, 2,1 faizi Şəki-Zaqatala, 1,9 faizi Qazax-Tovuz, 1,2 faizi Mərkəzi Aran, 1,1 faizi Şirvan-Salyan, 0,9 faizi Qarabağ, 0,7 faizi Dağlıq Şirvan, 0,7 faizi Mil-Muğan, 0,4 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarında açılmışdır.



Ümumiyyətlə, bu il avqustun 1-i vəziyyətinə olan ilkin məlumatlara əsasən, ölkədə iqtisadi fəal əhalinin sayı 5288,8 min nəfər olmuşdur və onlardan 4947,7 min nəfərini məşğul əhali təşkil etmişdir. Bu dövrdə muzdla çalışan işçilərin sayı 1690,6 min nəfər olmuşdur. O cümlədən iqtisadiyyatın dövlət sektorunda 908,1 min, qeyri-dövlət sektorunda 782,5 min nəfər çalışmışdır. İqtisadiyyatın neft-qaz sektorunda 32 min, qeyri neft-qaz sektorunda isə 1658,6 min nəfər cəmləşmişdir.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin sahələr üzrə sayını göstərən rəqəmlər də maraq doğurur. Belə ki, onların 23,8 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,6 faizi tikintidə, 7,5 faizi emal sənayesində, 3,4 faizi kənd, meşə təsərrüfatlarında, balıqçılıq sahələrində, 1,9 faizi mədənçıxarma sənayesində, 1,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğuldur.

Xidmət sahəsində işləyənlərin isə 19,4 faizi təhsil, 18,5 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 8,2 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 5,2 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi istirahət, əyləncə və incəsənət, 1,8 faizi informasiya və rabitə, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 1,7 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 0,9 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində çalışırlar.

Əhalinin məşğulluğunun təmin olunması istiqamətində atılan uğurlu addımlar sırasında ictimai iş yerlərinin açılmasının və özünüməşğulluğun inkişaf etdirilməsinin xüsusi yeri var. Qeyd edək ki, pandemiya ilə bağlı vəziyyət ictimai iş yerlərinin sayının daha da artırılmasını gündəmə gətirmişdir və bununla əlaqədar minlərlə ödənişli ictimai iş yeri yaradılmışdır.

Özünüməşğulluq da vətəndaşlar üçün əlverişli qazanc formasıdır. Belə ki, hər ailənin öz büdcəsi olur, bunun sayəsində də insanlar müəyyən iş qura bilirlər. Əlbəttə, dövlətin köməyi ilə. Bu il 16 min insanın özünüməşğulluq proqramına cəlb olunması nəzərdə tutulub. Onlara dövlət tərəfindən vasitələr verilir və beləliklə, maddi ehtiyaclarının özlərinin təmin etməsinə imkan yaradılır. Özünüməşğulluq proqramına cəlb olunan insanlar arasında artıq 5 mindən çox şəhid ailələrinin üzvləri və müharibə əlilləri var. Bu proqram insanların dolanışığını yaxşılaşdırmaqla yanaşı, iqtisadi inkişafa təkan verəcək.

Göstərilən fakt və rəqəmlər bir daha təsdiq edir ki, Azərbaycanda əhalinin rifah halının daha da yaxşılaşdırılması üçün davamlı tədbirlər həyata keçirilir. Bunların da mühüm bir hissəsini yeni iş yerlərinin açılması təşkil edir. İnsanların məşğulluq probleminin həlli daim dövlətin və şəxsən Prezident İlham Əliyevin diqqətindədir. Bu həssas münasibətin nəticəsidir ki, məşğulluğun yüksək səviyyədə həlli üçün yeni yollardan, ehtiyat mənbələrindən istifadə olunur.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Biz birlikdə güclüyük!



## Ağstafada karantin qaydalarının əməl olunmasına nəzarət gücləndirilib



Koronavirus infeksiyasının geniş yayılmasının, onun törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə elan edilən xüsusi karantin qaydaları çərçivəsində Ağstafa polisi rayon ərazisində nəzarət-profilaktik tədbirləri daha da gücləndirmişdir.

Polis əməkdaşları rayon ərazisindəki ticarət və iaşə obyektlərində, eləcə də əhalinin sıx olduğu digər yerlərdə tez-tez reydlər keçirir, tibbi maskalardan istifadə etməyən, sosial məsafəni gözləməyən şəxslərə koronavirus infeksiyasının fəsadları və mövcud sanitar-gigiyenik tələblərə əməl etməyin vacibliyi izah olunur, lazım gəldikdə inzibati protokol tətbiq edirlər.

İctimai nəqliyyatda maskalardan istifadəyə, sosial məsafənin qorunması qaydalarına əməl olunmasına isə Dövlət Yol Polisi Bölməsinin əməkdaşları nəzarət edir və bu istiqamətdə monitorinqlər keçirirlər. Keçirilən monitorinq zamanı sürücü və sərnişinlərə sosial məsafənin gözlənilməsi, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadənin vacibliyi, düzgün istifadənin zəruriliyi barədə tövsiyələr verilir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



# Bitmək bilməyən pandemiyadan çıxış yolu peyvəndlənmədir

### Vaksinasiyanın sürətlənməsi normal həyata daha tez dönməyimizə səbəb ola bilər

*Əvvəli 1-ci səh.*

Son günlər ərzində ABŞ-da, Avropa ölkələrində, Rusiyada, Türkiyədə, İranda və digər ölkələrdə yoluxma sayında yenidən artım qeydə alınır. COVID-19 pandemiyasının başlanmasından bir il yarıma yaxın vaxt keçməsinə baxmayaraq, ölkələr, hətta inkişaf etmiş dövlətlər müəyyən preventiv tədbirlər hesabına yoluxma sayını azaltmağa nail olsalar da, onun yayılmasının qarşısını ala bilmirlər. Hazırda COVID-19-a yoluxma hallarının artmasının əsas səbəbi daha çox karantin qaydalarının yumşaldılması və bununla əlaqədar insanlarda rahatlanmanın yaranması, eyni zamanda "Delta" ştammının yayılması ilə əlaqələndirilir. "Delta" ştammı hazırda ABŞ-da, Rusiyada, Britaniyada və digər ölkələrdə dominant növə çevrilib.

Azərbaycanda da mütəxəssislər son günlər ərzində virusa yoluxma sayının artmasının əsas səbəbi kimi "Delta" ştammını göstərir. "Delta"nın digər növlərdən əsas fərqi onun yoluxduruculuq qabiliyyətinin yüksəkliyi və çox qısa zamanda yayılma arealını genişləndirə bilməsidir. "Delta" COVID-19-un orijinal növündən iki dəfə, digər variantlardan isə təxminən 50 faiz daha yoluxucudur. Bu isə ölkələrdə sabit olmayan epidemioloji vəziyyəti daha da gərginləşdirir.

ÜST-ün Azərbaycandakı nümayəndəsi Hande Harmancı da ölkədəki vəziyyəti qiymətləndirərkən son bir ayda yoluxma sayında sürətli artımın müşahidə olunduğunu vurğulayıb. O qeyd edib ki, Azərbaycanda son bir ayda COVID-19-a gündəlik yeni yoluxma hallarının və aparılan testlər arasında pozitiv nəticələrin sayı dəfələrlə çoxalıb. Yalnız 23 iyuldan 12 avqustadək gündəlik yoluxmaların sayında təxminən 7, ölümlərin sayı və gündəlik testlər arasındakı müsbət testlərin faiz dərəcəsində təxminən 5 dəfə artım baş verib.

ÜST nümayəndəsi xəbərdarlıq edir ki, əgər tədbir görülməzsə, sentyabrdan



gündəlik olaraq, daha yüksək rəqəmlərin qeydə alınmasının şahidi ola bilərik.

Azərbaycanın məsul rəsmiləri hələlik epidemioloji vəziyyətə nəzarət edilmənin mümkünlüyünü bildirirlər. Amma o da inkar edilmir ki, son günlərdə qeydə alınan artım tendendiyası koronavirusla bağlı mövcud vəziyyətin dəyişməsinə, səhiyyə müəssisələrinin yükünün artmasına səbəb ola bilər. Oxşar vəziyyət Azərbaycanda ötən ilin sonu, bu ilin əvvəlində müşahidə edildiyi üçün hər birimiz səhiyyə müəssisələrinin yükünün artmasının hansı fəsadlar verə biləcəyini gözümüzün önünə təkrarən gətirə bilərik.

Azərbaycanda yoluxma sayında artım tempinin müşahidə olunmasına baxmayaraq, hökumət hələlik onun qarşısının alınması üçün sərt tədbirlər görmək niyyətində deyil.

Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf şöbəsinin müdiri Şahmar Mövsümov Nazirlər Kabineti yanında Operativ Qərargahın avqustun 20-də keçirdiyi brifinqində hər hansı əlavə məhdudiyyətlərin tətbiqinə ehtiyacın olmadığını açıqlayıb. Lakin bunu da qeyd edib ki, əgər xəstəxanaların dolma əmsalı çox yüksək olarsa, Operativ Qərargahda növbəti mərhələlərdə məhdudiyyətlərin tətbiqi məsələsi müzakirə oluna bilər. O, peyvəndləmənin bu gün ən effektiv yol olduğunu vurğulayıb.

Azərbaycan pandemiya ilə mübarizədə peyvəndlənmənin ən səmərəli yol olduğu qəbul və bunu tətbiq edən ilk ölkələrdəndir. Bunun üçün ölkədə sistemli şəkildə Milli Peyvənd Strategiyası da həyata keçirilir. *Avqustun 31-nə olan məlumata görə, ölkədə vurulan vaksinlərin ümumi sayı 6805740, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 4113716, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı isə 2692024 təşkil edir.* Lakin müəyyən dövr üçün kollektiv immunitetin yaranmasından ötrü əhalinin təxminən 70-80 faizinin peyvənd olunması vacib hesab edilir. Virusun ötən 1,5 il ərzində yeni-yeni ştammlarının ortaya çıxması onu göstərir ki, bu gün pandemiya ilə mübarizədə vaksinləşdirmədən başqa alternativ yol yoxdur. Buna görə kütləvi vaksinasiyanın qısa zaman ərzində sürətlə həyata keçirilməsi pandemiya ilə daha tez vidalaşmağımıza, normal həyata dönməyimizə səbəb ola bilər.

"Delta" ştammının yayıldığı hazırkı dövrdə peyvəndin vurulmasının olduqca önəmli olduğunu ÜST bir daha xatırladır. ÜST yeni sübutlara əsasən bəyan edir ki, insan COVID-19-a əvvəllər yoluxsa belə, "Delta" ilə yenidən yoluxma riski daha çoxdur. "Delta" variantına yoluxmuş insanlarda xəstəxanaya yerləşdirməyə səbəb olan ağır simptomların meydana çıxma riski daha yüksəkdir. Təsdiq olunmuş peyvəndlər isə COVID-19-un növlərinə qarşı effektlidir. Müvafiq doza qəbul edən şəxslərin ağır xəstələnməsi və ölmək ehtimalı daha azdır.

Bunu da qeyd edək ki, vaksinləşdirmə yeni başladığı zamanlarda əhalinin müəyyən qismi arasında peyvəndə qarşı inamsızlıq olduğu üçün onu vurdurmaqdan çəkinən insanlar var idi. İnsanların bəziləri vaksinin vurulmasından sonra orqanizmin buna verdiyi cavabı düzgün qəbul etməyərək cəmiyyətdə onun təhlükəli olması barədə yanlış məlumatlar yayır, peyvəndin zərərli olması mifini yaradırdılar. Artıq yaxşı haldır ki, bu gün insanlar özləri vaksinin əhəmiyyətini və təhlükəsiz olmasını başa düşərək onu vurdurmağa maraq göstərirlər. Tibb məntəqələrində yaranan növbələr və vaksin vurduran insanların getdikcə artan sayı ona qarşı artan marağın bir göstəricisidir.

Hələliksə Azərbaycanda vaksinləşdirmə əhalinin daha çox hissəsini əhatə etmədiyi üçün müəyyən profilaktik tədbirlərin görülməsi zəruri sayılır. Ölkəmizdə yoluxmanın qarşısının alınması məqsədilə gözlənilən əsas yeni tədbirlərdən biri sentyabrın 1-dən yaşı 18-dən çox olan şəxslərin qapalı məkanlara daxil olması üçün onlardan COVID-19 pasportu tələb edilməsi olacaq. Belə ki, həmin müddətdən etibarən yaşı 18-dən yuxarı olan şəxslər ictimai iaşə müəssisələrində, mehmanxanalarda, iri ticarət mərkəzlərində qapalı məkanda göstərilən xidmətlərdən yalnız COVID-19 pasportu olduğu halda istifadə edə biləcəklər.

Məhdudiyyətlərin sərtləşdirilməsini insanlar istəmədiyi kimi dövlət də istəmir. Yeni qapanmalar, məhdudiyyətlər heç kəs üçün arzuolunan deyil. Lakin bunun olmaması üçün insanlar pandemiyanı bitmiş kimi hesab etməli deyillər. Unutmaq lazım deyil ki, virus hələ də bizimlədir, o, yayılır və pandemiyanın bitməsinə imkan vermir.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***



Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | | Bu gün 31.08.2021 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 424891 | Yeni yoluxanların sayı | 3788 |
| Ümumi sağalanların sayı | 366126 | Yeni sağalanların sayı | 3228 |
| Aktiv xəstə sayı | 53129 | Bugünkü test sayı | 19693 |
| Ümumi test sayı | 4461937 | Bugünkü ölüm sayı | 44 |
| Ümumi ölüm sayı | 5636 | | |



Azərbaycan Respublikasının ərazisində COVID-19 əleyhinə aparılan vaksinasiya ilə bağlı son vəziyyət

| Ümumi | | 31.08.2021 | |
|---|---|---|---|
| Vurulan vaksinlərin ümumi sayı | 6805740 | Gün ərzində vurulan vaksinlərin sayı | 116709 |
| 1-ci mərhələ üzrə vaksinasiya olunanların sayı | 4113716 | 1-ci mərhələ üzrə vaksinasiya olunanların sayı | 69972 |
| 2-ci mərhələ üzrə vaksinasiya olunanların sayı | 2692024 | 2-ci mərhələ üzrə vaksinasiya olunanların sayı | 46737 |



## Qazaxda koronavirus əleyhinə növbəti dezinfeksiya işləri aparılıb



Son vaxtlar ölkədə koronavirus pandemiyasına yoluxanların sayında kəskin artım müşahidə edildiyindən vətəndaşlarımızın bu xəstəlikdən qorunması və xəstəliyin geniş yayılmasının qarşısının alınması məqsədilə kompleks tədbirlər həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, respublikamızın hər yerində olduğu kimi, Qazaxda da son günlər ölkə ərazisində koronavirus pandemiyası ilə bağlı mövcud vəziyyət və xəstəliyə yoluxanların sayındakı artım nəzərə alınaraq, bu epidemiyaya qarşı mübarizə tədbirləri genişləndirilib.

Genişmiqyaslı tədbirlər çərçivəsində qrafikə əsasən Qazax Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları tərəfindən şəhərin Heydər Əliyev prospekti, Bakı, Azadlıq, Firuddin Şamoyev küçələrində, sakinlərin sıxlıq təşkil etdiyi "Fəxri qazaxlılar" parkında, "Qazax Avtovağzal" ASC-də, şəhərdaxili və şəhərdən kəndlərə sərnişin daşıyan marşrutlarda dezinfeksiya işləri aparılıb.



## Tovuzda COVID-19 əleyhinə 112205 doza peyvənd vurulub

Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq əhalinin peyvənd olunması prosesi uğurla davam etdirilir.

AZƏRTAC xəbər verir ki, Tovuz rayonunda da hazırda yaşı 18-dən yuxarı olan vətəndaşların peyvəndlənməsi, həmçinin ikinci doza vaksinin vurulması prosesi icra olunur.

Tovuz rayonunun 177 mindən çox əhalisi var. Rayon üzrə ümumilikdə 112205 doza vaksin vurulub. 70675 nəfər isə koronavirus infeksiyasına qarşı birinci doza peyvənd olunub.

# *Həkim-diyetoloq:* "Virus infeksiyalarından qorunmaq üçün immuniteti gücləndirmək lazımdır"

İmmunitet orqanizmi bakteriya və viruslardan qoruyur. Dırnaqların qırılması, saçların tökülməsi və zəifliyi, yorğunluq və aqressivlik kimi hallar immunitetin aşağı olmasının başlıca əlamətləridir. Bundan başqa, halsızlıq, bədən temperaturunun mütəmadi yüksəlməsi, virus infeksiyaları ilə tez-tez xəstələnmək immunitetin zəifliyindən xəbər verir. İmmuniteti gücləndirmək üçün yuxu rejimini normaya salmaq lazımdır. Sutkada 8 saat yatmaq, yorğun olarkən mütləq dincəlmək lazımdır. Həmçinin gün ərzində 2 saat aktiv yerimək də vacib nüansdır. Səhər 6-7 radələrində və yatmazdan əvvəl təxminən 1 saat gəzmək olduqca faydalıdır.

AZƏRTAC xəbər verir ki, diyetoloq-nutrisioloq Nərminə Mahmudova yeni növ koronavirus (COVID-19) pandemiyası dövründə immuniteti gücləndirməyin vacibliyindən və metodlarından danışıb.

Həkim-mütəxəssis bildirib: "İmmuniteti qaldırmaq üçün qidalanma menyusu düzgün seçilməlidir. Bal, sitrus meyvələri, sarımsaq, zəncəfil və itburnu immuniteti möhkəmləndirmək xüsusiyyətinə malikdir. Həmçinin "fast food" qidalardan, qızardılmış yeməklərdən uzaq durmaq lazımdır. Düzgün qidalanma hər zaman bol tərəvəzli qidalanmadır. Normasında olmaq şərtilə, ət qidaları qəbul etmək immuniteti qaldıra bilər. Ətli qidalardan əsasən günorta saatlarında istifadə etmək lazımdır, çünki ət yeyərkən həzm prosesi gec baş verir. Ona görə axşam saatlarında ətlə qidalanmaq məsləhət deyil. Ümumiyyətlə isə, gün ərzində yalnız bir porsiya ət yeməyi kifayətdir.

Nəzərə almaq lazımdır ki, meyvələr yeməkdən ya yarım saat öncə, ya da yeməkdən 2 saat sonra qəbul edilməlidir. Su da həmçinin yeməkdən yarım saat öncə qəbul edilə bilər. Yeməkdən sonra isə yalnız bir stəkan qatıq və ya kefir içmək məsləhətdir, çünki bu məhsullar bağırsaqların mikroflorasını təmizləyir".



İmmuniteti gücləndirmək üçün qidalanma zamanı vaxt rejiminə də riayət etməyin vacibliyini vurğulayan N.Mahmudova qeyd edib: "Rejimsiz qidalanmaq düzgün deyil. Pandemiya şəraitində rejimə əməl etmək xüsusilə vacibdir. Səhər saat 7-8-də oyandıqdan sonra 2 stəkan su içmək faydalıdır. Mədə-bağırsaq sistemində ciddi problemi olmayanlar suya yarım limonun suyunu sıxaraq içə bilərlər. Bu həm immuniteti yüksəldir, həm də bədəndəki artıq piyləri yandırır. Bilmək lazımdır ki, səhər yeməyi üçün kəsmik, pomidor, xiyar və zeytun kimi məhsullar çox faydalıdır. Həmin qidalar lazım olan qədər arıqlamağa kömək edir. Səhər yeməyi ilə günorta yeməyi aralığında aclıq hiss edəndə "detoks" içmək olar. Bununla yanaşı, ara yemək kimi müxtəlif çərəzlərdən istifadə etmək mümkündür. Axşam yeməyini isə 18-19 radələrində qəbul etmək daha məqsədəuyğundur. Gecikdirmək olmaz, çünki orqanizmdə həzm prosesi saat 22-yə qədər davam edə bilir. Yəni immuniteti, ümumiyyətlə, orqanizmi gücləndirmək üçün yemək saatları nəzərə alınmalıdır".

Diyetoloq vətəndaşları ehtiyatlı olmağa çağırıb: "İnternetdən götürülmüş şablon pəhriz menyuları ilə immuniteti qaldırmağa və arıqlamağa çalışmaq məsləhət deyil. Hər kəsin orqanizmi individualdır. Orqanizmin tələbini müvafiq analizlərin cavabı olmadan müəyyən etmək olmaz. Həkimlə məsləhətləşmədən pəhriz saxlamaq doğru deyil".

## Ötən gün 9 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkarlanaraq saxlanılıb

Avqustun 30-da daxili işlər orqanlarının əməkdaşları tərəfindən respublika ərazisində 9 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkarlanaraq saxlanılıb.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, polis əməkdaşları onlarla izahedici söhbətlər aparıb, tibbi prosedurları gözləməklə həmin şəxsləri yaşadıqları evə qaytarıblar. Bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə 5 nəfər barəsində cinayət işi başlanıb, istintaq araşdırmaları davam etdirilir.

Elm xadimləri

# Görkəmli dilçi, mətnşünas alim

Azərbaycanda qədim dövrə aid əlyazmaların zəngin xəzinəsi mövcuddur. Bu əlyazmaları öyrənən mətnşünaslıq elmi indi xeyli inkişaf etmişdir. Azərbaycan mətnşünaslıq elminin görkəmli nümayəndələrindən biri mənalı ömrünün çoxunu bu çətin və şərəfli işə həsr etmiş akademik Möhsün Nağısoyludur.



75 yaşını qeyd etməyə hazırlaşdığımız akademik Möhsün Zellabdın oğlu Nağısoylu 1971-ci ildə indiki Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin İran filologiyası şöbəsini fərqlənmə diplomu ilə başa vuraraq elə həmin ildən ömrünü Elmlər Akademiyası, daha dəqiq desək, o zamankı adı ilə Respublika Əlyazmalar Fondu ilə bağlamışdır. Möhsün müəllim həm tələbə vaxtı (1967-1970), həm də fondda işlədiyi müddətdə (1972-1975) Əfqanıstanda tərcüməçi kimi də fəaliyyət göstərmiş və İran filologiyasına aid biliklərini daha da dərinləşdirmişdir. O, Əlyazmalar İnstitutunda 45 ilə yaxın çalışmış, burada laborantlıqdan şöbə müdirliyinə qədər yol keçmiş, namizədlik, doktorluq dissertasiyaları müdafiə etmişdir. Bu fədakar elm adamı həmin institutda işlədiyi müddətdə qədim əlyazmaların mətnşünaslıq və dilçilik baxımından tədqiqi sahəsində yüksək ixtisaslı alim kimi tanınmış, farsdilli əlyazmalar kataloqunun I, II və III cildlərinin hazırlanmasında fəal iştirak etmişdir. 2012-ci ildə professor elmi adını alan Möhsün Nağısoylu 2014-cü ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə isə həqiqi üzvü seçilmişdir. Görkəmli elm xadimi 2015-ci ildən AMEA-nın Nəsimi adına Dilçilik İnstitutuna rəhbərlik etməkdədir.

55-dən artıq kitab və monoqrafiyanın müəllifi, tərtibçisi və tərcüməçisi akademik M.Nağısoylunun əsas xidməti mətnşünaslığın nəzəri və praktiki məsələləri, Məhəmməd Füzulinin, Vəli Şirazinin, Əhmədi Təbrizinin, Möhsün Nəsirinin, Şeyx Mahmud Şəbüstərinin, Həzininin, Abbasqulu ağa Bakıxanovun tərcümə irsinin tədqiqi ilə bağlıdır. M.Nağısoylunun fars dilindən tərcümə etdiyi Sədrəddin Bəlağinin "Quran qissələri" və Şeyx Mahmud Şəbüstərinin "Gülşəni-raz" məsnəvisi onun həm də mahir bir tərcüməçi olduğundan xəbər verir. Görkəmli alimin rəhbərliyi və iştirakı ilə tərtib edilmiş irihəcmli "Farsca-azərbaycanca lüğət" və "Azərbaycanca-farsca lüğət" kitablarının nəşri xalqlar arasında mədəni əlaqələri inkişaf etdirmək baxımından çox böyük elmi və ictimai əhəmiyyət kəsb edir.

Məlumdur ki, Orta əsrlərdə Nəsimi, Füzuli, Xətai poeziyası ilə yanaşı, ədəbiyyatımızın, ədəbi dilimizin inkişafında tərcümə sənətinin də mühüm rolu olmuşdur. Şərq dillərindən, xüsusilə ərəb və fars dillərindən edilən bədii tərcümələr dilimizin, ədəbiyyatımızın inkişafında mühüm rol oynayırdı. Bu məsələlərin dərindən və sistemli tədqiqi M.Nağısoylunun yaradıcılığında xüsusi yer tutur. Belə ki, böyük alimin XX əsrin son ilində (2000-ci il) nəşr etdirdiyi "Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti" adlı monoqrafiyasında ilk dəfə Azərbaycanda tərcümə ədəbiyyatının yaranması və inkişafı yolları araşdırılmış, onun növ və xüsusiyyətləri müəyyən edilmiş, ayrı-ayrı tərcümə əsərləri haqqında ilkin məlumat verilmişdir. Müəllif çox doğru olaraq vurğulayır ki, Orta əsrlər Azərbaycan ədəbiyyatı tarixində ərəb və fars dillərindən tərcümə olunmuş əsərlərin özünəməxsus yeri və çəkisi vardır. Azərbaycan türklərinin əsrlər boyu ərəblərlə və farslarla sıx ədəbi-mədəni əlaqədə olması və müştərək islam mədəniyyətinin yaranmasında bilavasitə iştirakı tərcümə sənətinin tarixi zərurət kimi ortaya çıxmasını şərtləndirmişdir. Doğrudan da, Orta əsrlər Azərbaycan tərcümə abidələri ədəbiyyat tariximizin ayrıca bir qolunu, həm də özünəməxsus cəhətləri ilə seçilən xüsusi bir qolunu təşkil etdiyi kimi, yazılı ədəbi dilimizin inkişafı tarixində də mühüm yer tutmuşdur və təsadüfi deyildir ki, bu problemin araşdırılması mətnşünaslıq elminin tərcümə sənəti kimi ayrıca bir bölməsini meydana çıxarmışdır. Bu qiymətli monoqrafiya bu gün də mətnşünasların, klassik ədəbiyyat tədqiqatçılarının stolüstü kitabı olaraq istifadə edilməkdədir.

Bu yaxınlarda AMEA Rəyasət Heyətindən işlədiyim quruma (AMEA-nın Naxçıvan bölməsi, Dil, Ədəbiyyat və İncəsənət İnstitutu) bir kitab göndərmişdilər: "Şühədanamə". "Elm" nəşriyyatında yenicə çapdan çıxmış təxminən min səhifəlik bu əsər diqqətimi çəkdi. İstədim akademik Möhsün Nağısoylunun geniş ön sözlə yazıb nəşrə hazırladığı bu dəyərli kitab haqqında mülahizələrimi oxucularla bölüşüm. Onu da qeyd edim ki, "Şühədanamə"ni oxuyarkən xəyal məni bir anlığa keçmişə apardı. Kərbəla şəhidlərindən bəlağətli bir dillə bəhs edən bu əsəri biz 1960-cı illərin sonlarında indiki Bakı Dövlət Universitetinin tələbəsi olarkən əlyazma şəklində, Kirill əlifbası ilə makinada çap olunmuş variantda gizli olaraq oxumuşduq. Çünki sovet ideologiyasında din yasaq idi, dini ədəbiyyatın oxunmasına, nəşrinə icazə verilmirdi. O zaman "Şühədanamə" abidəsinə bədii əsər kimi maraq çox güclü idi. Universitetdəki müəllimimiz professor Samət Əlizadə 1965-ci ildə bu mövzuda ("Şühədanamə"də adlar) namizədlik dissertasiyası müdafiə etmişdi. Yadımdadır ki, onun ardınca da bu əsərə Möhsün müəllim müraciət edərək tədqiqat işinə başladı və 1979-cu ildə "XVI əsr Azərbaycan tərcümə abidəsi "Şühədanamə" (paleoqrafiya, orfoqrafiya və tərcümə məsələləri)" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etdi. Amma əsərin özü çap edilmədi. Bu qiymətli tərcümə əsərinin çap olunmaması sovet ideologiyasının milli dəyərlərə qoyduğu yasaqlarla bağlı idi.Yalnız müstəqillik dövründə belə bir önəmli əsərin nəşrinin həyata keçirilməsi üçün münbit şərait yarandı. Təqdirəlayiq haldır ki, klassik tərcümə sənətinin və ədəbi dil tariximizin qaynaq əsərlərindən olan Nişatinin irihəcmli "Şühədanamə" tərcüməsinin akademik nəşri ilk dəfə məhz görkəmli mətnşünas, akademik M.Nağısoylu tərəfindən həyata keçirildi. "Şühədanamə" Kəmaləddin Hüseyn bin Əli Vaiz Kaşifinin (ölüm tarixi 1504-05) farsca yazdığı "Rövzətüş-şühəda" kitabının ana dilimizə ilk tərcüməsidir. "Rövzətüş-şühəda" İmam Hüseynin Kərbəla faciəsinə həsr olunmuş ən məşhur əsərlərindən biridir. Azərbaycan mütərcimi və katibi Məhəmməd bin Hüseyn Nişati bu kitabı 1539-cu ildə Şiraz şəhərində ana dilimizə çevirmişdir. Nişati ilə yanaşı, Məhəmməd Füzuli də Kaşifinin "Rövzətüş-şühəda" əsərinə müraciət etmiş, onu "Hədiqətüs-süəda" adı ilə özünəməxsus böyük ustalıqla dilimizə sərbəst şəkildə tərcümə etmişdir. Qeyd edək ki, akademik M.Nağısoylu bu əsərin də dilimizdəki ilk naşirlərindən biridir. Bundan az sonra o, 2002-ci ildə "M.Füzulinin "Hədiqətüs-süəda" əsəri" adlı monoqrafiya nəşr etdirmişdir. Bu monoqrafiyada Möhsün müəllim Mövlana Məhəmməd Füzulinin "Hədiqətüs-süəda" əsərini geniş şəkildə tədqiq etmiş, bu əsərlə Kaşifinin "Rövzətüs-şühəda" əsəri arasında geniş şəkildə müqayisələr aparmış, sübut etmişdir ki, böyük sənətkar Mövlana Məhəmməd Füzuli Kaşifinin əsərini özündən xeyli əlavələr etməklə yaradıcı şəkildə sərbəst tərcümə etmişdir.

Dilinin sadəliyi və zənginliyi ilə seçilən "Şühədanamə"nin mütərcimi Nişatinin həyat və yaradıcılığı haqqında əlimizdə bir o qədər də məlumat yoxdur. Bircə o məlumdur ki, tərcüməçi bu əsərdən əlavə, 1543-cü ildə tamamladığı Şah I Təhmasib tərəfindən sifariş edilmiş "Şeyx Səfi təzkirəsi" əsərini də yüksək səviyyədə ana dilimizə tərcümə etmiş və bu tərcümə əsəri XVI əsr Azərbaycan nəsrinin ən qiymətli abidələrindən biri kimi diqqəti cəlb edir. Alim bu irihəcmli nəsr əsərinə də ön söz və izahlar yazmış, 2006-cı ildə nəşr etdirmişdir.

Uzunmüddətli filoloji araşdırmaların məticəsində meydana çıxan, haqqında bəhs edilən "Şühədanamə" kitabı akademik M.Nağısoylunun bu sahədə apardığı tədqiqatların zirvəsini təşkil edir. Əsərin təxminən 30 səhifəlik "Şühədanamə":orta əsrlər Azərbaycan tərcümə sənətinin və ədəbi dilinin dəyərli qaynağı" adlı giriş qismində mütərcimin avtoqraf əlyazmalarından biri kimi bu tərcümə əsərinin əsas məziyyətlərindən, bir neçə üstün cəhəti ilə Orta əsrlərin başqa tərcümə əsərlərindən fərqlənməsindən bəhs edilir. Mətnşünas alim mütərcim Nişatinin avtoqrafının üç üstün cəhətini xüsusilə vurğulayır: 1."Şühədanamə"nin Nişatinin əli ilə köçürdüyü və dünyada yeganə olan avtoqraf nüsxəsi günümüzə qədər gəlib çatmışdır. Bunun avtoqraf olması isə o deməkdir ki, əlyazmanın mötəbərliyi və düzgünlüyü maksimum dərəcədədir və mətnşünaslıq baxımından müstəsna əhəmiyyət daşıyır. 2."Şühədanamə"nin mütərcimi Nişati həm də dövrünün peşəkar və savadlı katiblərindən biri olmuşdur. Deməli, "Şühədanamə" Azərbaycanda tarixi qrafika və orfoqrafiya məsələlərinin öyrənilməsi üçün də mötəbər qaynaqlardan biri sayılmalıdır. 3."Şühədanamə"də yazılı ədəbi dil xüsusiyyətləri ilə yanaşı, XVI əsrdə Təbriz şivəsinin səciyyəvi cəhətləri də özünü göstərir ki, bu da tarixi dialektologiyanın öyrənilməsi baxımından müstəsna əhəmiyyət daşıyır.

Tədqiqatçı təcrübəli mətnşünas kimi əlyazmanın geniş təsvirini vermiş, 338 vərəqdən ibarət olan əlyazmada mətn içərisində işlənmiş Quran ayələrinin, ərəbcə söz və ifadələrin nəsx xəttilə yazıldığını göstərmişdir. Burada tərcüməçi-katib hər bir sözün, hətta hərfin gözəl biçimdə yazılmasına xüsusi diqqət yetirmişdir. M.Nağısoylu "Şühədanamə" ilə "Rövzətüş-şühəda"nın mətnlərini tekstoloji baxımdan araşdıraraq müəyyən etmişdir ki, tərcüməçi orijinala əsasən sadiq qalmış, bununla belə mətndə bəzi yerləri qısaltmış, həm də tərcümə zamanı bəzi əlavələr də etmişdir. Tərcüməçi fars dilində qəliz və dəbdəbəli üslubda qələmə alınmış "Rövzətüş-şühəda" əsərini "qamu türk oymağlarının müstəidlərinə" çatdırmaq vəzifəsini qarşısına məqsəd qoymuş və işin öhdəsindən müvəffəqiyyətlə gələrək fars dilindəki əsəri sadə və canlı danışıq dilinə yaxın bir üslubda tərcümə etməyə nail olmuşdur.

Dibaçə və on babdan ibarət olan "Şühədanamə"nin mətninin transfoneliterasiyasının həcmi təxminən 600 səhifəyə yaxındır. Mətndə işlənmiş xüsusi adların geniş izahı da verilmişdir. Bundan əlavə, kitabda əsərin gənc oxucular tərəfindən asan anlaşılması üçün mətndə işlənmiş ərəb-fars sözlərinin və arxaik səciyyəli türkmənşəli sözlərin lüğəti də verilmişdir. Kitabda mətnşünaslıq elminin qaydalarına uyğun olaraq onomastik vahidlərin ad göstəricisi və əsərin faksimlesi də yer almışdır. Bu mühüm amil gələcək tədqiqatçıların XVI əsr ədəbi dilimizin dəyərli abidəsi "Şühədanamə"dən geniş istifadəsinə münbit şərait yaradılması baxımından çox diqqətəlayiqdir.

"Elm" nəşriyyatında işıq üzü görən "Şühədanamə" kitabının akademik nəşri Möhsün Nağısoylunun ədəbiyyatşünaslıq, dilçilik və mətnşünaslıq elminə, eləcə də geniş oxucu kütləsinə dəyərli töhfəsidir.

Görkəmli dilçi-mətnşünas alim, klassik tərcümə sənətinin tanınmış tədqiqatçısı, akademik Möhsün Nağısoylunu anadan olmasının 75 illiyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı və yeni yaradıcılıq uğurları arzu edirik.

***Əbülfəz QULİYEV,***
***AMEA-nın müxbir üzvü***

## Heydər Əliyev Fondunun dəstəyi ilə Goranboyda daha bir uşaq bağçası əsaslı təmir olunub



Heydər Əliyev Fondunun dəstəyi ilə Goranboy rayonunda 1 saylı körpələr evi-uşaq bağçası əsaslı təmirdən sonra istifadəyə verilmişdir.

Bununla bağlı keçirilən tədbirdə Milli Məclisin deputatı Anar Məmmədov, rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, Heydər Əliyev Fondunun nümayəndəsi Ceyhun Aslanov və rayon ziyalıları iştirak etmişlər.

Açılış mərasiminin iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, abidə önünə gül dəstəsi qoymuşlar.

Sonra Anar Məmmədov uşaqları və bağça kollektivini təbrik edərək diqqətə çatdırmışdır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uşaqlara dövlət səviyyəsində yüksək diqqət və qayğıkeşlik göstərilir: "Bu gün Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə şəhid Şamil Quliyevin adını daşıyan 1 saylı körpələr evi-uşaq bağçasının əsaslı şəkildə təmir edilərək istifadəyə verilməsi bunun bariz nümunəsidir".

Sonra iştirakçılar 95 yerlik körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanış olmuşlar. Məlumat verilmişdir ki, uşaq bağçası yataq, oyun, tibb, məşğələ, yemək, musiqi otaqlarından, həmçinin idman zalı, mətbəx və anbardan ibarətdir. Burada azyaşlıların təlim və tərbiyəsi üçün də hər cür şərait yaradılmışdır.

Söz düşmüşkən bildirək ki, hazırda rayonda 32 uşaq bağçası fəaliyyət göstərir və onların əsaslı təmirə ehtiyacı olanları zamanla təmir ediləcək.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***






# XVI Tokio Yay Paralimpiya Oyunları

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ PARALİMPİYA KOMİTƏSİ

# Paralimpiyaçılarımız tarix yazmaqda davam edirlər

## Üzgüçümüz qızıl dubla imza atdı









Atletlərimiz Yaponiyada keçirilən Paralimpiya Oyunlarında uğurlarını davam etdirirlər. Yarışların növbəti günü Azərbaycan komandasının hesabındakı medal sayı 15-ə çatdı. Onlardan 10-u qızıl, 1-i gümüş, 4-ü isə bürüncdür.

Avqustun 31-nə kimi paracüdoçular Şəhanə Hacıyeva (48 kq), Sevda Vəliyeva (52 kq), Xanım Hüseynova (63 kq), Vüqar Şirinli (60 kq), Hüseyn Rəhimli (81 kq), Dürsədəf Kərimova (+70 kq) qızıl, Namiq Abaslı (66 kq) və İlham Zəkiyev (+100 kq) bürünc medala sahib olmuşdular. 100 metr məsafəyə üzgüçülük yarışında isə Raman Saleh Paralimpiya çempionu adını qazanmışdır. Nizəatma yarışında dünya rekordu müəyyənləşdirən para-atletimiz Həmid Heydəri də qızıl medala sahib olmuşdur. Onun uğurunu Elvin Astanov nüvəatma yarışında təkrarlamışdır. Səid Nəcəfzadə uzunluğa tullanmada, Pərvin Məmmədov pauerliftinqdə fəxri kürsünün üçüncü pilləsinə qalxmışlar.

Dünən isə medal hesabımıza daha iki medal əlavə olundu. Üzgüçümüz Raman Saleh sərbəst üsulla 100 metr üzməkdə 1-ci yerə yiyələndi. Finişə 52,69 saniyəyə çatan R.Saleh ən yaxın izləyicisini 0,18 saniyə qabaqlayaraq özünün ikinci qızıl medalını əldə etdi. O, daha öncə 100 m məsafəyə arxası üstə üzməkdə çempionluq sevinci yaşamışdı.

Yarışdan sonra Azərbaycan üzgüçüsü Raman Saleh deyib ki, ona dəstək olan hər kəsə təşəkkür edir: "Qalib gəldiyim üçün çox şadam. Bu, mənim Tokio paralimpiadasında 2-ci qızıl medalımdır. Necə deyərlər, bundan sonra daha böyük mükafat qazanacağıma ümid edirəm".

Ölkəmizin hesabına gümüş medalı isə Lamiyə Vəliyeva yazdırıb. O, qadınların 100 m məsafəyə qaçışında 11,99 saniyə ilə fərqlənib. Bu həm də Lamiyənin şəxsi rekordu olub.

## Parataekvondoçumuzun koronavirus testi müsbət çıxıb



Azərbaycan milli Paralimpiya komandasının daha bir üzvünün "Tokio-2020"də koronavirus testi müsbət çıxıb.

Azərbaycan Milli Paralimpiya Komitəsindən verilən məlumata görə, parataekvondoçumuz Aynur Məmmədovanın (+58 kq) verdiyi COVID-19 testi iki dəfə pozitiv nəticələnib.

Daha əvvəl isə "Rio-2016"nın qızıl mükafatçısı, paracüdoçu Ramil Qasımovun testi müsbət çıxmışdı.

# “Azərenerji” 57 keçmiş məcburi köçkünü azad olunmuş rayonlarda işlə təmin edib






“Azərenerji” ASC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, bu günə qədər işğaldan azad edilmiş ərazilərdə cənab Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq “Azərenerji” ASC tərəfindən 3 elektrik stansiyası yenidən qurulub və 3 yarımstansiya tikilərək istismara verilib.

Hazırda 5 yarımstansiya, 1 elektrik stansiyasında tikinti, quraşdırma işləri, o cümlədən yüksək gərginlikli xətlərin çəkilməsi prosesi davam edir. Nəticədə bu günə kimi “Azərenerji” tərəfindən Qarabağ və Şərqi Zəngəzurda istismara verilən enerji obyektlərində 57 nəfər işlə təmin edilib ki, onların əksəriyyəti məhz işğaldan azad edilmiş rayonların sakinləridir.

Belə ki, Laçındakı 8 MVt gücündə “Güləbird” Su Elektrik stansiyasında 5 nəfər, Tərtərin işğaldan azad edilən Suqovuşan qəsəbəsindəki ümumi gücü 7,8 MVt olan “Suqovuşan-1” və “Suqovuşan-2” Kiçik Su Elektrik Stansiyalarında 9 nəfər, 110/35/10 kV-luq “Şuşa” yarımstansiyasında 7 nəfər, 110/35/10 kV-luq “Füzuli” yarımstansiyasında 6 nəfər, 110/35/10 kV-luq “Kəlbəcər” yarımstansiyasında isə 4 nəfər işlə təmin edilib. Bundan başqa, tikintisi yekunlaşmaqda olan 110/35/10 kV-luq “Cəbrayıl” yarımstansiyasında da 4 nəfər işlə təmin edilib ki, onların da hamısı məhz cəbrayıllılardır. Həmçinin Qarabağ Regional Elektrik Şəbəkəsinin yarımstansiya, hava elektrik verilişi xətti xidmətləri də daxil olmaqla, ümumilikdə, 17 əməkdaşı işlə təmin edilib. Beləliklə, “Azərenerji” obyektlərinin əməkdaşları ya doğulduqları rayondan, ya da işğaldan azad edilən qonşu rayonlardan məcburi köçkün olmuş şəxslərdir.

## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi 2021-ci il 26-27 oktyabr tarixlərdə İsrailin Tel-Aviv şəhərində keçiriləcək turizm sərgisində agentlik üçün açar təhvili üsulu ilə sərgi stendinin quraşdırılması işlərinin “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun satın alınmasına dair

### *təkliflər sorğusu elan edir*

Təkliflər sorğusunda təmir və bərpa işləri üzrə təcrübəsi olan və ixtisaslı işçi heyətinə malik rezident və qeyri-rezident hüquqi şəxs, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilər.

İddiaçılar təkliflər sorğusunda iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;*
- *təklif (qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 bank günü təşkil etməlidir);*
- *təklif dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;*
- *iddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında dövlət orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatı;*
- *məhkumluq barədə arayış;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin və onlara edilmiş əlavə və düzəlişlərin müvafiq qaydada təsdiqlənmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
- *təkliflər sorğusuna dair təklifi və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının son 3 (üç) il ərzində oxşar işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *peşəkar işçi heyəti (CV);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair sənəd;*
- *digər sənədlər (təkliflər sorğusunun Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).*

İddiaçılar konsorsium yaratmaqla təkliflər sorğusunda iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar təkliflər sorğusuna dair təkliflərini qapalı, möhürlənib imzalanmış ikiqat zərflərdə təqdim etməlidirlər. Azərbaycan Respublikasından olan iddiaçıların təkliflər sorğusuna təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, möhürlənib imzalanmış ikiqat zərflərdə 16 sentyabr 2021-ci il saat 18:00-dək Bakı şəhəri, Nizami küçəsi, 96E, Landmark I, 3-cü mərtəbəyə (əlaqələndirici şəxs - Mehman Bayramov) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 17 sentyabr 2021-ci il saat 12:00-da Bakı şəhəri, Nizami küçəsi, 96E, Landmark I, 3-cü mərtəbədə açılacaqdır. Zərflər iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığı üzrə açılacaq və təkliflər elan ediləcəkdir.

***Tender komissiyası***

## State Tourism Agency of the Republic of Azerbaijan announces

### *request for quotations*

In accordance with requirements of the Law on Public Procurement of the Republic of Azerbaiyan, the State Tourism Agency of the Republic of Azerbaiyan announces a request for quotation for stand construction services at IMTM 2021 exhibition to be held in Tel-Aviv on 26-27th of October.

Both resident and non-resident yuridical persons, or union of yuridical persons (consortiums included) with qualified staff and relevant experience in installation of exhibition stands are invited to take part in the request for quotation.

Bidders must submit following documents in order to participate in the request for quotation:

1. Filled-in application form;
2. Quotation valid for a minimum of 30 banking days after the opening date of quotation envelopes;
3. Bank guarantee in amount of 1% of the quotation (to be valid at least 30 bank days more than the validity period of quotation)
4. Reference document from relevant tax or social security authorities confirming the absence of any overdue taxes or other mandatory payments;
5. Financial statement approved by relevant state body (bodies) on the bidder's activities for the last 12 months;
6. Certificate of conviction;
7. Bank statement on the bidder's financial status for the last 12 months;
8. Certified copies of the bidder's original registration documents and any amendments to them (including the full name, legal status, country of incorporation, and main place of business of the bidder) and the bidder's bank details;
9. Document confirming the authority of the person to sign the quotation and the procurement contract;
10. Document confirming type of ownership (micro/small/medium or large);
11. Documents confirming the bidder's relevant work experience during past three years;
12. Proyect staff (CV);
13. All other documents specified in the Terms of Reference.

In case the bidders wish to participate in the request for quotation by creating a consortium, they must submit the consortium agreement as well as the above-mentioned necessary documents and information on all members of the consortium.

Bidders should submit their quotations enclosed in double sealed and signed envelope. Bidders from the Republic of Azerbaiyan should submit all their documents in the state language of the Republic of Azerbaiyan. Bidders from foreign countries should submit all their documents in their respective languages together with a copy in Azerbaiyani language. In case of any discrepancies copies in Azerbaiyani will prevail.

Bidders should prepare their quotations in line with the requirements of the Terms of Reference and submit it along with other required documents by September 16, 2021 (18.00) at the address of Landmark I, 3rd floor, 96E Nizami str., Baku AZ1010 (sontact person Mehman Bayramov). Envelopes submitted later than the indicated deadline will be returned without being opened.

The envelopes will be opened on September 17, 2021 (at 12.00) at Landmark I, 3rd floor, 96E Nizami str., Baku AZ1010. The envelopes will be opened, and quotations will be announced on the sequence of their submission with participation of authorized representatives of the bidders.

***Tender Commission***


## Azercell abunəçilərinin nəzərinə

06 oktyabr 2021-ci il tarixdən etibarən, abunəçilərin istək və tələbatlarını nəzərə alaraq, “Biznesim IoT 50 MB” və “Biznesim IoT 100 MB” tariflərində 30 günlük istifadə müddətindən əvvəl internetdən istifadə həcmi bitdikdə müvafiq həcm avtomatik olaraq yenilənəcək.

Qeyd: Abunəçilər göstərilən dəyişikliklər, “Biznesim IoT 50 MB” və “Biznesim IoT 100 MB” tarifləri, o cümlədən tariflərin başqası ilə əvəzetmə və imtina qaydası və “Azercell Telekom” MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.



## Azercell abunəçilərinin nəzərinə

“Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 02.09.2021-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# AZANS “Maverick Awards 2021” beynəlxalq mükafatının münsiflər heyətinə seçildi

“Azərbaycan Hava Yolları” QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, “Azərbaycan Hava Yolları” QSC-nin nəzdində fəaliyyət göstərən “Azəraeronaviqasiya” Hava Hərəkəti İdarəsi (AZANS) “Maverick Awards 2021” beynəlxalq mükafatının münsiflər heyətinə seçildi. CANSO beynəlxalq aeronaviqasiya təminatı provayderləri təşkilatı tərəfindən təsis edilən bu mükafat aeronaviqasiya sahəsində əldə edilən uğurlara görə təqdim olunur.

“Maverick Awards 2021” beynəlxalq mükafatı CANSO aeronaviqasiya sahəsində mühüm nailiyyətlərə, uğurlara, innovasiyalara, habelə aeronaviqasiya və hava hərəkətinin təşkili (HHT) sahəsində dayanıqlı inkişafa görə təqdim edilir.

Belə ki, münsiflər tərəfindən kateqoriyalara görə verilən ballara əsasən, hər nominasiya üzrə təqdim olunan müsabiqə işləri ən yüksək qiymətləndirmədən aşağıya doğru sıralanır. Müsabiqənin sonunda münsiflər tərəfindən “Maverick Awards 2021” mükafatının qalibləri müəyyən edilir.

Bu mükafat yeni parlaq fikirlər nümayiş etdirmək üçün, habelə ətraf mühitə müsbət töhfəni qəbul edən və bütün aviasiya və HHT sahəsinin təkmilləşdirilməsinə təkan verən özünəməxsus platformadır.

Mükafat üç nominasiya üzrə təqdim olunur:

- Əməkdaşlığa görə mükafat;
- İnnovasiyalara görə mükafat;
- Dayanıqlı inkişafa görə mükafat.

Nominasiyalar üzrə namizədlərin seçilməsi və münsiflik prosesi “Maverick Awards”ın münsiflər heyəti tərəfindən açıq və şəffaf meyarlar əsasında həyata keçirilir.

Münsiflər heyətinə “Air Traffic Control Association” (ATCA) assosiasiyası və “Civil Air Navigation Services Organization” (CANSO) təşkilatının nümayəndələri qəbul edilir. Bunlar geniş təcrübəyə və biliklərə malik, aeronaviqasiya xidmətləri provayderləri sıralarından olan, aviasiya və elm sahələrinin tanınmış liderləridir

Qeyd edək ki, ATCA və CANSO müstəqil və qərəzsiz münsiflərdən ibarət komandanın təşkili üçün namizədlərin seçimi prosesinə diqqətlə yanaşır.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Cavanşir Paşazadəyə əzizi

**FAMİL MİRİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev və “Azərenerji” ASC-nin kollektivi Maqsud Məmmədova oğlu

**CAVİD MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərenerji” ASC-nin rəhbərliyi və kollektivi “Azərişıq” ASC-nin Maştağa Enerji Təchizatı və Satışı İdarəsinin məsul əməkdaşı

**RASİM ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi “İqtisadiyyat” kafedrasının dosenti Zöhrə Mustafayevaya oğlu

**VÜQAR MUSTAFAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Cavanşir Paşazadəyə əzizi

**FAMİL AĞAHƏBİB OĞLU MİRİYEVIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin üzvləri respublikanın Əməkdar memarı, Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü

**YUSUF ORUC OĞLU YAQUB-ZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Qəbələ RİH-nin başçısı Səbuhi Abdullayevə əzizi

**SÖHRAB SALMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Quliyevlər və Məmmədovlar ailələri ilə birlikdə Şahlar Babayevə qardaşı

**YAŞAR BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Həyat yoldaşı Rafiq, övladları Ayşad, Billur, gəlinləri Faira və Aygün əzizləri - Nəsimi rayon 21 saylı uşaq poliklinikasının həkim-kardioloqu

**VALİDƏ İSGƏNDƏROVANIN**

vəfatını dərin hüznlə qohumlarına, dostlarına və yaxınlarına bildirirlər.

---

Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımov və məhkəmənin kollektivi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik Baş İdarəsinin şöbə rəisi Mahir Yolçuyevə atası

**MALİK YOLÇUYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Füzuli Rayon Məhkəməsinin kollektivi Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayevə anası

**SİMUZƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yardımlı Rayon Məhkəməsinin kollektivi Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayevə anası

**SİMUZƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4938
Sifariş 1601
Qiyməti 40 qəpik